Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

13 NOYABR 2019-cu il

№ 201 (4099)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QARABAĞSIZ RAZILAŞMANIN MÜMKÜNSÜZLÜYÜ - LAVROV İRƏVANDA PAŞİNYANIN İNKAR OLUNMUŞ TEZİSLƏRİNİN TƏSİRİ ALTINDA...

səh. 4



səh. 2

## İcra başçıları hələ belə konkret mesaj almamışdılar - Prezidentin bu gün sizə etimadı var, sabah olmaya bilər...

Prezidentin yeni icra başçıları qarşısında qoyduğu hədsiz çətin, lakin mümkün vəzifə...

səh. 3

Ermənistan danışıqları davam etdirməyin mənasızlığını daha çılpaq ortaya qoyur...

səh. 9

BMT TŞ-nin 4 qətnaməsini mənasız kağız parçasına çevirmiş Paşinyanın Baş katiblə anlaşılmaz "selfi mehribanlığı"...

səh. 7

Lavrov uydurma "genosid abidəsi" önündə əyildi - Azərbaycan bir yana, bəs Türkiyə ilə müttəfiqlik duyğusu?

səh. 7

Paşinyan İrəvandakı ABŞ laboratoriyalarının sirlərini Rusiyaya "satdı"...

səh. 5

İrəvanla qondarma "DQR" arasında rouminq yığışdırmaq xülyası - Qarabağa yeni mobil operator necə gələ bilər...

səh. 6

Bankların yanlış kursunun daha bir ziyanı - əmanətçilərin pulları iqtisadiyyatdan uzaq salınır...

səh. 11

"Araz" marketlər şəbəkəsində satılan "555" yağları ətrafında qalmaqal yaranıb - Şirkətin reaksiyası...

səh. 12



Heydər Əliyev Dağlıq Qarabağın şişirdilmiş statusunu 1978-ci ildə Azərbaycanın milli maraqlarına uyğun çərçivəyə necə qaytardı...

səh. 5

Yaponiya da Çinə baxıb üzünü Azərbaycana tutdu...

səh. 10



Azərbaycan qarşısında Xamneyinin məşhur müşavirini həbs etmək məsələsi qaldırıldı...

səh. 6

səh. 8

"Ermənistan" dünyada ilk xristian dövlətidirsə, onda Roma Papası kimdir...



səh. 4

Lavrovdan Paşinyanın təxribatçı format dəyişmə ideyasına dəstək - uydurma "DQR" danışıqlarda nə vaxt iştirak edib...



səh. 12

Ağır fəsadlarla nəticələnmiş yol qəzalarına görə piyadalara da cinayət işi açılacaq



səh. 15

Məktəb bufetlərində yeməklərlə bağlı yeni ideya var...



səh. 14

Roza Cəlilova Mahnı və Rəqs Ansamblına qarşı...



# İcra başçıları hələ belə konkret mesaj almamışdılar - Prezidentin bu gün sizə etimadı var, sabah olmaya bilər...

**Prezident İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edib.**

### İnkişaf varsa, islahatlara ehtiyac varmı?

Görüşdə çıxış edən Prezident deyib:

-Ölkəmizdə kadr islahatları davam edir. Kadr islahatları ümumi islahatların tərkib hissəsidir. Keçənilki prezident seçkilərindən sonra yeni islahatlar dövrünə start verildi və bu islahatlar davam etdirilir. Sual yarana bilər ki, əgər ölkədə sürətli inkişaf təmin edilirsə, islahatlara ehtiyac varmı? Birmənalı olaraq cavab verə bilərəm ki, bəli, islahatlara ehtiyac var. İslahatlar təkmilləşmə deməkdir, islahatlar yeni dövrə uyğunlaşma deməkdir, islahatlar tərəqqi deməkdir. Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilibdir.

Son 16 il ərzində Azərbaycanda sürətli inkişaf dövrü yaşanır. Bu inkişaf özünü bütün sahələrdə büruzə verir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Bu gün biz dünya miqyasında çox böyük hörmətə layiq ölkə kimi öz fəaliyyətimizi aparırıq. Qoşulmama Hərəkatının bu yaxınlarda Bakıda keçirilmiş Zirvə Görüşü bunu bir daha təsdiqlədi. Biz artıq BMT-dən sonra dünya miqyasında ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edirik və üç il ərzində sədrliyi davam etdirəcəyik. Bu sədrlik 120 ölkənin rəyi əsasında yekdil qərarla əldə edilibdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin ən azı üçdəiki hissəsi Azərbaycanı dəstəkləyir və bizim siyasətimizə böyük qiymət verir.

### Bizə qarşı tuşlanan oxlar…

…Əlbəttə ki, bütün bu müsbət nəticələri qorumaq və onları artırmaq üçün mütləq kadr islahatı da aparılmalıdır. Bu məqsədlə Azərbaycanda hazırda çox ciddi kadr islahatları aparılır. Həm təcrübə qazanmış kadrlar daha da səmərəli öz işlərini qururlar, eyni zamanda, gənclərə də böyük meydan verilir. Bu, təbiidir, çünki gələcəkdə ölkəmizi bugünkü gənclər idarə edəcəklər. Onlar gərək həm təcrübə toplasınlar, peşəkar olsunlar, eyni zamanda, Vətənə bağlı olsunlar. Ona görə gənclərə vətənpərvərlik hissləri aşılamaq hər birimizin borcudur ki, onlar gələcəkdə Vətənə bağlı olsunlar və hər hansı bir xarici təsirdən azad olsunlar. Çünki ölkəmizin nüfuzu artır, imkanları artır. Bizim iştirakımız, razılığımız olmadan regional müstəvidə heç bir təşəbbüs, yaxud da ki, layihə icra edilə bilməz. Əlbəttə, belə olan halda bizə həm maraq artır, həm də ki, bəzi dairələr tərəfindən təzyiqetmə cəhdləri də arta bilər. Düzdür, son 16 ilin təcrübəsi onu göstərir ki, kənardan edilən hər hansı bir təzyiqə Azərbaycan çox böyük məharətlə və ləyaqətlə davam gətirə bilir. Bizə qarşı ünvanlanmış bütün bu oxlara, silahlara tutarlı cavab verə bilmişik. Bu cavabın əsas mahiyyəti ondan ibarətdir ki, xalq-iqtidar birliyi bugünkü sabitliyin və müstəqil həyatımızın əsas təminatçısıdır. Ancaq yenə də deyirəm, gənclər mütləq məhz vətənpərvərlik ruhunda tərbiyə almalı və təcrübə toplamalıdılar. Ona görə son dövrün kadr islahatlarının məqsədlərindən biri də odur ki, biz gənclərə daha geniş imkanlar yaradaq, geniş meydan verək ki, onlar həm təcrübə toplasınlar, həm də gələcəkdə öz işləri ilə ümumi işimizə töhfə versinlər.

Bu gün kadr islahatlarının yeni dövrüdür. Bu gün bir neçə rayona icra başçıları təyin olunur. Onların bəziləri artıq neçə ildir ki, icra başçısı vəzifəsində işləyirlər, bəziləri bu gün bu məsul vəzifəyə təyin olunurlar. Biz burada təcrübə ilə yeniliyin sintezini, vəhdətini görürük və bu, uğurlarımızın əsas bazasıdır.

Yeni təyin olunan icra başçılarına mənim sözüm odur ki, siz, ilk növbədə, vəziyyəti düzgün qiymətləndirməlisiniz, çox ciddi təhlil aparmalısınız, çatışmayan cəhətləri üzə çıxarmalısınız və mövcud olan problemlərin həlli üçün səylərinizi göstərməlisiniz. O problemlər ki, həlli mərkəzi icra orqanlarından asılıdır, siz mütləq mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, digər müvafiq qurumlara müraciət etməlisiniz. O məsələləri ki, özünüz həll edə bilərsiniz, özünüz də həll etməlisiniz. Başlıca məsələ ondan ibarətdir ki, sizin işinizdə əsas prinsiplər bərqərar olsun. Birinci halda ləyaqətlə xidmət etməlisiniz. Bu, həm bu gün yeni təyin olunan icra başçılarına, həm də artıq icra başçısı vəzifəsində işləmiş və digər rayon və şəhərlərə göndərilən icra başçılarına aiddir. Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm - xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir.



### Əgər siz hansısa bəd əmələ düçar olsanız…

Yenə də Davos İqtisadi Forumunun hesabatına qayıtmaq istəyirəm. Orada göstərilir ki, hakimiyyətin dəyişikliklərə, islahatlara meyili və əhali tərəfindən rəhbərliyə olan dəstək sahəsində Azərbaycan dünya miqyasında birinci onluğa daxil edilib. Bu dəstək nəyin hesabınadır? Ona görə ki, xalqa xidmət etmək mənim borcumdur və bundan sonra da əsas borcum olaraq qalacaq.

Digər tərəfdən, icra başçıları peşəkar olmalıdırlar, bilikli olmalıdırlar və onlar işlədikləri rayonda, şəhərdə nüfuz qazanmalıdırlar. Bu, onların sırf öz işindən asılıdır. Prezidentin etimadı artıq xalqa bir mesajdır ki, Prezident bu şəxslərə etimad göstərir. Ancaq bu etimad mütləq deyil, bu gün var, sabah olmaya bilər. Bu, artıq sizin işinizdən asılıdır. Siz işi elə qurmalısınız ki, vətəndaşlar sizi dəstəkləsinlər, sizə dayaq olsunlar. Əgər siz hansısa bəd əmələ düçar olsanız, əlbəttə ki, biz dərhal bundan xəbər tutacağıq və cəzanızı alacaqsınız. Elə işləməlisiniz ki, xalq sizdən razı olsun. İlk növbədə, xalqa xidmət etmək və öz vəzifənizin öhdəsindən peşəkarcasına gəlmək sizin borcunuzdur. Digər tərəfdən, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparmalısınız. Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir. Düzdür, elə ölkə yoxdur ki, bu problem orada olmasın. Amma əsas məsələ ondadır ki, rəhbərlik və hakimiyyət, o cümlədən yerli icra orqanları bu məsələyə necə münasibət göstərirlər. Əgər gözlərini yumurlarsa, yaxud da ki, özləri bu çirkin işlərə qarışırlarsa, əlbəttə ki, layiqli cəzalarını da alacaqlar və almalıdırlar.

### Bəzi dövlət məmurlarına qarşı əsassız ittihamlar irəli sürülür…

Bir daha vətəndaşlara müraciət etmək istəyirəm, əgər görsəniz ki, rəhbər şəxslər əyri yola gedirlər, mütləq məlumat verin, mütləq xəbər göndərin və biz, əlbəttə ki, bütün siqnalları yoxlayıb düzgün qərar qəbul edəcəyik. O da həqiqətdir ki, bəzən hansısa şəxsi zəmində dövlət məmurlarına qarşı əsassız ittihamlar irəli sürülür. Xüsusilə özünü müxalifət adlandıran antimilli və tamamilə rəzil olmuş qorxaq dəstə bu işlərdə ön sıralardadır. Çünki onların əlindən heç nə gəlmir. Onların işi ancaq qarayaxma kampaniyaları aparmaq və bizim işimizə maneçilik törətməyə cəhd göstərməkdir. Ancaq tarix və həqiqət onu göstərir ki, ayağımıza dolaşmaq istəyən bu antimilli qorxaq dəstə bizim işimizə zərrə qədər ziyan vura bilməz. İndi onlar ancaq sosial şəbəkələrdən, bəzi internet resurslarından istifadə edərək dövlət məmurlarına qarşı qarayaxma kampaniyası aparırlar. Ona görə yerlərdən gələn hər bir siqnala obyektiv baxılacaq və sizin fəaliyyətinizə obyektiv qiymət veriləcək. Ona görə siz elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda işlər yaxşı getsin. Siz çalışmalısınız ki, rayonlara sərmayə qoyulsun, investorları inandırmaq üçün səylər göstərməlisiniz. Yəni, gözləməməlisiniz ki, dövlət gəlib hansısa işi görəcək, onsuz da biz bunu görürük. Hazırda 4-cü regional inkişaf proqramının icrası davam edir. Əminəm ki, növbəti 4 il ərzində bu günə qədər öz həllini tapmamış məsələlər də öz həllini tapacaq. Ancaq siz hər bir rayonda mövcud olan problemlərə diqqət göstərməlisiniz, reaksiya verməlisiniz və çalışmalısınız ki, bu məsələlər öz həllini tapsın.

### Sahibkar iş görmək istəyirsə…

Ona görə vətənpərvərlik, dürüstlük, şəffaflıq, vətəndaşlara xidmət, dövlətçilik prinsiplərini əsas tutmaq, investorları cəlb etmək, rayonların sosial-iqtisadi inkişafını təmin etmək sizin əsas vəzifəniz olmalıdır. Yenə də deyirəm, həm sənaye, həm də kənd təsərrüfatı istehsalı sahələrinə dövlət xətti ilə çox böyük dəstək göstərilir. Təsadüfi deyil ki, bu ilin 9 ayının yekunlarına görə qeyri-neft sənayemiz 15 faizdən, kənd təsərrüfatı 7 faizdən çox artıb. Artıq pambıq yığımı mövsümü başa çatır, mənə verilən məlumata görə, bu il biz rekord göstəriciyə nail olmuşuq. Biz keçən ilə nisbətən əkin sahələrini azaltdıq, 132 min hektardan 100 min hektara endirdik, çünki bəzi yerlərdə torpaqlar düzgün seçilməmişdi. Ancaq məhsuldarlıq artdı. Hazırda yığım davam edir və hektardan məhsuldarlıq 27 sentnerə çatıb, keçən il 17 sentner idi. Keçən il biz 132 min hektardan 233 min ton pambıq yığmışdıqsa, bu il 100 min hektardan artıq 270 min tondan çox pambıq yığmışıq. Mən təkcə pambığı deyirəm. İndi taxılçılıqda da böyük irəliləyiş var. Ümumi göstərici hektardan 32 sentnerə çatıb. Bu, çox yaxşı göstəricidir. Daha da artacaq. Meyvəçilikdə, fındıqçılıqda da məhsuldarlıq artır. Yəni, kənd təsərrüfatı sahəsində dövlət xətti ilə çox böyük işlər görülür. Siz də öz dəstəyinizi verməlisiniz və sahibkarlara diqqət göstərməlisiniz, onları incitməməlisiniz. Əgər hansısa sahibkar vəsait qoymaq, hansısa iş görmək istəyirsə, birinci olaraq siz ona dəstək verməlisiniz. Bəzi hallarda sahibkarlara qarşı ədalətsizlik edilir və onlardan nəsə əldə etmək cəhdləri göstərilir. Buna qətiyyən yol vermək olmaz. Sahibkarlara da deyirəm ki, əgər belə xoşagəlməz halla üzləşsələr, dərhal bizə məlumat versinlər.

Ölkəmizin ümumi inkişafı müsbətdir və mən gələcəkdə hər hansı bir ciddi problem görmürəm. Çünki ölkəmiz siyasi cəhətdən çox möhkəmdir, sabitlik Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Bizim siyasətimizə ləkə vuran hər bir adam öz cəzasını alacaqdır. Biz bu qədər səy göstəririk, bu qədər işlər görürük, əgər hansısa yaramaz məmur öz şəxsi maraqlarını təmin etmək üçün hansısa bəd əməl törədərsə, mütləq cəzasını alacaq və artıq tarix bunu göstərir.

Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız və elə işləyəcəksiniz ki, rəhbərlik edəcəyiniz rayon və şəhərlərdə inkişaf daha da sürətli olsun.

# Prezidentin yeni icra başçıları qarşısında qoyduğu hədsiz çətin, lakin mümkün vəzifə...

**Məlum olduğu kimi, noyabrın 12-də Prezident İlham Əliyev Şirvan şəhər, Zərdab, Bakının Suraxanı, Yasamal, Xətai rayonlarına yeni təyin olunan icra hakimiyyəti başçılarını qəbul edib. Ölkə başçısı qəbul zamanı bir sıra məsələlərə toxunub, o cümlədən, qeyd edib ki, rüşvətxorluq, korrupsiyanın kökü Azərbaycan gündəmindən silinməlidir.**



"...Digər tərəfdən, icra başçıları peşəkar olmalıdırlar, bilikli olmalıdırlar və onlar işlədikləri rayonda, şəhərdə nüfuz qazanmalıdırlar. Bu onların sırf öz işindən asılıdır. Prezidentin etimadı artıq xalqa bir mesajdır ki, Prezident bu şəxslərə etimad göstərir. Ancaq bu etimad mütləq deyil, bu gün var, sabah olmaya bilər. Bu artıq sizin işinizdən asılıdır. Siz işi elə qurmalısınız ki, vətəndaşlar sizi dəstəkləsinlər, sizə dayaq olsunlar. Əgər siz hansısa bəd əmələ düçar olsanız, əlbəttə ki, biz dərhal bundan xəbər tutacağıq və cəzanızı alacaqsınız. Elə işləməlisiniz ki, xalq sizdən razı olsun. İlk növbədə, xalqa xidmət etmək və öz vəzifənizin öhdəsindən peşəkarcasına gəlmək sizin borcunuzdur. Digər tərəfdən, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparmalısınız. Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir. Düzdür, elə ölkə yoxdur ki, bu problem orada olmasın. Amma əsas məsələ ondadır ki, rəhbərlik və hakimiyyət, o cümlədən, yerli icra orqanları bu məsələyə necə münasibət göstərirlər..." - deyə Prezident İlham Əliyev bildirib.

İcra başçıları rayon miqyasında rüşvətxorluğun, korrupsiyanın qarşısını kəsə bilərmi?

*Bəhruz Quliyev: "Belə hesab edirəm ki, yerlərdə, rayonlarda icra başçılarından çox şey asılıdır, onlar istəsələr, ölkədə rüşvətin qarşısının alınması prosesinə dəstək verə bilərlər"*

"Səs" qəzetinin və eyniadlı informasiya agentliyinin baş redaktoru Bəhruz Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, artıq dövlət səviyyəsində rüşvətxorluq və korrupsiya hallarına qarşı kəskin, amansız mübarizə aparılır. B.Quliyev hesab edir ki, icra başçıları rəhbərlik etdikləri rayonlarda rüşvətxorluq və korrupsiyanın qarşısının alınması üçün çox iş görə bilər. "Hesab edirəm ki, vətəndaş kimi, icra başçısı da icra başçısı kimi, öz növbəsində, bu hala qarşı mübarizə aparmalıdır. Vətəndaş öz hüquqlarından istifadə edərək rüşvət verməməlidir, ümumiyyətlə, bu halı yaxın qoymamalıdır. O özü rüşvət verməməlidir, hər hansı bir məsələ ilə bağlı öz hüquqlarını tələb etməlidir. Bütün məsələlər hüquq normaları çərçivəsində baş verərsə, heç bir rüşvətə ehtiyac qalmaz. Digər tərəfdən də yerli icra başçıları da cənab Prezidentin tapşırıqlarını yerinə yetirərkən, vətəndaşın, sahibkarın hər hansı bir işini həll edərkən onlardan rüşvət tələb etməsə, öz vəzifəsini yerinə yetirmiş olar. Düşünürəm ki, hər kəs öz borcunu yerinə yetirsə, onda bizim dövlətimiz daha da güclənər, qüdrətlənər. İcra başçıları istəsələr, rəhbərlik etdikləri rayonların ərazisində rüşvəti nisbətən yığışdırmağa nail olarlar. Ümumiyyətlə, rüşvətxorluqla mübarizə çox çətin prosesdir və dünya bu problemlə mübarizə aparır, elə dövlət yoxdur ki, orada bu kimi hallar mövcud olmasın. Azərbaycanda rüşvətxorluğa və korrupsiyaya qarşı amansız mübarizə başlayıb. Artıq yerlərə də cənab Prezident mesaj verib. Cənab Prezident tapşırıqlarında birbaşa deyir ki,

*"Bunun özü yerli və mərkəzi icra hakimiyyəti başçılarına bir mesajdır ki..."*

rüşvətin, korrupsiyanın qarşısı alınmalıdır, buna qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Ölkə başçısından gələn bu mesaj hər kəs üçün bir tezis olmalı, hər kəs öz əməli işi ilə buna riayət etməlidir. Belə hesab edirəm ki, yerlərdə, rayonlarda icra başçılarından çox şey asılıdır, onlar istəsələr, ölkədə rüşvətin qarşısının alınması prosesinə dəstək verə bilərlər" - deyə B.Quliyev qeyd etdi.

B.Quliyevin sözlərinə görə, bütün dünya korrupsiya və rüşvətxorluqla kəskin mübarizə aparır. Onun bildirdiyinə görə, bu təkcə Azərbaycanın deyil, bütün dövlətlərin, cəmiyyətlərin problemidir. "Ümumilikdə, bu problem var. Ən əsası odur ki, Azərbaycanda korrupsiyaya və rüşvətə qarşı mübarizə sərt şəkildə aparılır. Bunu cənab Prezidentin özü də dəfələrlə qeyd edib. Bunun özü yerli və mərkəzi icra hakimiyyəti başçılarına bir mesajdır ki, fəaliyyətlərində rüşvətxorluq, korrupsiya hallarına son qoysunlar. Azərbaycanda həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri vətəndaş və məmur arasındakı münasibətlərin şəffaflaşdırılmasıdır, idarəetmənin optimallaşmasıdır. "ASAN xidmət" və sair yeni təsisatların yaradılması korrupsiyanın, rüşvətxorluğun və bürokratiyanın aradan qaldırılması üçün dövlətin atdığı addımdır. Bu özü göstərir ki, Azərbaycan dövləti rüşvət və korrupsiyanın aradan qaldırılması üçün iş aparır" - deyə B.Quliyev vurğuladı.

***İradə SARIYEVA***

# Bakının mərkəzində Müsavatın piket cəhdinə cəmi 15 nəfər gəldi......

*BŞBPİ qanunsuz piketə cəhdlə bağlı məlumat yayıb*

**Müsavat Partiyasının üzvləri paytaxtın mərkəzi ərazilərindən birində mitinq keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib.**

Bakı Şəhər Baş Polis İdarəsindən (BŞBPİ) bakixeber.com-a verilən məlumata görə, müraciətə uyğun olaraq, "Sərbəst Toplaşmaq Azadlığı Haqqında" Qanunun müvafiq tələblərinə əsasən, ictimai asayişin pozulmasının qarşısının alınması və şəhərin mərkəzi hissəsində keçirilməsi onun yerinin dəyişdirilməsi formasında məhdudlaşdırılaraq paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki "Neftçi" idman klubunun



təlim bazası təklif olunub.

Bu barədə müraciətin müəlliflərinə rəsmi məlumat verilib və onlar müəyyən edilməmiş yerlərdə keçiriləcək hər hansı aksiyanın qarşısının alınacağı, baş verə biləcək ictimai qayda pozuntularına görə məsuliyyət daşıyacaqları barədə Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən rəsmi xəbərdar ediliblər.

Buna baxmayaraq, noyabrın 12-də saat 15 radələrində ümumi sayı təxminən 15 nəfərdən ibarət şəxs Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında qanunsuz piket keçirməyə cəhd göstərib. Görülmüş tədbirlərlə hüquqazidd hərəkətlərin qarşısı alınıb.



## Mikayıl Cabbarov gələn il qeyri-neft sektorunda əhəmiyyətli artım vəd etdi...

**Azərbaycan sabit və dayanıqlı iqtisadi artımı təmin etmək üçün yeni inkişaf drayverlərini işə salmalıdır. "Trend"in məlumatına görə, bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov parlamentdə büdcə müzakirələri zamanı deyib.**

O bildirib ki, ixrac potensialının həyata keçirilməsində qeyri-neft sənayesi xüsusi əhəmiyyətə malikdir: "Gələn il neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorunda da əhəmiyyətli artım gözlənilir. Belə ki, Ümumi Daxili Məhsulun gələn il 3 faiz, növbəti illərdə isə 3,3 faiz artacağı proqnozlaşdırılır. Gələn il üçün inflyasiya 4,6 faiz, sonrakı il üçün isə 4 faiz ətrafında olacağı proqnozlaşdırılır. Gələn il neft-qaz sektorunda 1,6 faiz, növbəti illərdə isə 3 faiz artımı gözlənilir. Bu ilin 9 ayında qeyri-neft sənayesində əlavə dəyər 16,6 faiz artıb. Növbəti ildə aqrar sektorda 4,8 faiz, sonrakı 3 ildə orta hesabla 4,3 faiz artım gözlənilir".

M.Cabbarov əlavə edib ki, Azərbaycanda "kölgə" iqtisadiyyatı ilə bağlı həyata keçirilən islahatlar sosial layihələrin maliyyələşməsinə imkan yaradıb.

Nazir qeyd edib ki, növbəti ildə proqnozların reallaşdırılması üçün biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması və digər addımların davam etdirilməsi önəmlidir: "Görülən işlər nəticəsində qeyri-neft sahəsində ildən-ilə artım qeydə alınır. Bu tendensiyanın növbəti illərdə də davam edəcəyi gözlənilir".

# Qarabağsız razılaşmanın mümkünsüzlüyü - Lavrov İrəvanda Paşinyanın inkar olunmuş tezislərinin təsiri altında...

**Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair razılıq əldə etmək bu regionun əhalisinin razılığı olmadan mümkün deyil. Belə bəyanatla İrəvana səfəri zamanı Rusiya xarici işlər naziri Sergey Lavrov erməni həmkarı Zöhrab Mnatsakanyanla keçirdiyi brifinqdə çıxış edib.**




## *Nəzakət Məmmədova: "Rusiya Qərbə hər an status-kvonu pozmaq mesajı göndərir"*

"Rusiya Dağlıq Qarabağın tamhüquqlu iştirakçı kimi danışıqlar masasına qayıtması təklifinə necə yanaşır?" sualına cavab olaraq Lavrov bildirib ki, danışıqlar prosesinin iştirakçılarının tərkibini tərəflər özləri razılaşdırmalı və müəyyən etməlidirlər: "Məsləhətləşmələrin və sonrakı danışıqların erkən mərhələsində, döyüş əməliyyatları dayandırılanda Dağlıq Qarabağ müvafiq razılaşmanın və danışıqların iştirakçısı olub, bu danışıqlardan sonra atəşkəs əldə edilib. Hansısa mərhələdə Ermənistan rəhbərliyi, əvvəlki prezidentlərdən biri qərar qəbul etdi ki, Dağlıq Qarabağın maraqlarını İrəvan təmsil edəcək...Və hamıya aydındır ki, Dağlıq Qarabağ xalqının razılığı olmadan heç bir razılaşmanı rəsmiləşdirmək mümkün deyil. Ermənistan sadəcə olaraq onu dəstəkləməyəcək".

Rusiyaya gəldikdə isə Lavrov deyib ki, Moskva bundan sonra da Dağlıq Qarabağ münaqişəsinin nizamlanması işində fəal rol oynamağa hazırdır. Nazirin sözlərinə görə, həmsədrlər istəyirlər ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması maraqların real balansını əks etdirsin:

"Ərazi bütövlüyü, xalqların öz müqəddəratını təyin etməsi və məsələnin ancaq sülh yolu ilə nizamlanması prinsipləri tərəflər arasında müzakirə olunan sənədlərin bütün variantlarında əksini tapıb. Və istənilən halda, yekun həll bütün bu prinsipləri nəzərə almalıdır. Bununla nə İrəvan, nə Bakı mübahisə edir. Amma sonrası diplomatiya sənətidir. İstənilən razılaşma, xüsusən də belə mürəkkəb məsələ ilə bağlı, - kompromislərdir. Və biz həmsədrlər çalışırıq ki, kompromis dürüst olsun, maraqların real və ədalətli balansını əks etdirsin".

Göründüyü kimi, Lavrov, faktiki olaraq, Paşinyanın uğursuzluğa düçar olmuş tezislərini təkrar etməklə məşğuldur. Onun işlətdiyi fikirlər bir müddət əvvəl şəxsən Paşinyanın özü tərəfindən qeyd edilib. Paşinyan da deyirdi ki, danışıqların formatına yenidən baxmaq lazımdır, Lavrov da deyir. Paşinyan konfliktin həllində "Qarabağ xalqı" ifadəsini işlədir, indi də Lavrov onu təkrar edir. Qeyd edək ki, hazırda Lavrovun Paşinyana istinad etdiyi hər iki tezis müxtəlif tədbirlər zamanı şəxsən İlham Əliyevin özü tərəfindən mümkünsüz sayılıb və sərt tənqidə məruz qalıb. Lavrovun aşırı erməni sevgisini özündə əks etdirən bu açıqlamasının kökündə hansı maraqlar dura bilər?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, Rusiya hər zaman öz beynəlxalq və regional siyasətinə hüquq donu geyindirməyə çalışıb, bunun fonunda da ABŞ və digər dövlətləri beynəlxalq hüququ pozmaqda ittiham edib: "Halbuki, Lavrovun "Qarabağ xalqı" ifadəsinin özü yanlış və əsassızdır. Bu, siyasi məqsədlə deyilmiş, heç bir tarixi, etnik zəmini olmayan məfhumdur.

Lavrovun erməni kimliyi, əlbəttə, burada müəyyən rol oynasa da, əsas deyil. Əsas olan odur ki, o, Cənubi Qafqazda postimperiya marağı olan Rusiya dövlətinin ən üst səviyyədə olan diplomatıdır, Rusiya siyasi isteblişmentinin təmsilçisidir və onun fikirləri Rusiyanın hazırkı siyasətinin, Qarabağ məsələsinə münasibətinin ifadəsidir.

Bu, Rusiyanın vasitəçilik missiyasının prinsiplərinə tamamilə ziddir. Görünür, Rusiyanın indiki məqamda Azərbaycandan müəyyən gözləntiləri və tələbləri var. Hansısa prinsipial məsələlər ətrafında güzəştlər qoparmağa çalışır. Qarabağ məsələsində Ermənistanı dəstəkləmə görüntüsü yaradaraq, Azərbaycana təzyiqini artırır və Lavrov belə demarşlara gedir.

Fikrimcə, bu, Azərbaycanın Avropa Birliyi ilə Assosiativ saziş imzalamağa hazırlaşması ilə əlaqədar ola bilər. Ukraynanın NATO-ya üzvlüyü məsələsinin aktuallaşması fonunda, Rusiya destruktiv bəyanatlar verərək, Qafqazda ikinci cəbhə açmaq, tərəflərin hərbi əməliyyatlara başlamasına dəstək anonsu verə bilər. Çünki Lavrovun bəyanatı, faktiki olaraq, status-kvonun pozulmasına qədər gətirib çıxara bilər. Deməli, qoşunların təmas xəttində atəşkəsin Rusiyanın dəstəyilə hərbi əməliyyatlar mərhələsinə keçməsi ehtimalı bəyan olunur. Rusiyanın bu demarşları Azərbaycanla Avropa arasında Assosiativ saziş və Ukraynanın NATO üzvlüyü ilə bağlıdır. Rusiya Qərbə hər an status-kvonu pozmaq mesajı göndərir".

***Məhəmmədəli QƏRİBLİ***

# Lavrovdan Paşinyanın təxribatçı format dəyişmə ideyasına dəstək - uydurma "DQR" danışıqlarda nə vaxt iştirak edib...

**Qarabağ problemini münaqişə tərəflərinin maraqlar balansına əsaslanaraq həll etmək mümkündür. Bunu bazar ertəsi İrəvanda mətbuat konfransı zamanı Rusiya xarici işlər naziri Sergey Lavrov bəyan edib.**



## *Fikrət Sadıqov: "Lavrovun bu açıqlaması ermənilərin xeyrinə diplomatik manevrdir"*

Ermənistan Baş naziri Nikol Paşinyanın "Dağlıq Qarabağı danışıqlar masası arxasına qaytarmaq cəhdlərinə" dair sualla bağlı Lavrovun səsləndirdiyi fikirlər, bir növ, bu tezisə dəstək xarakteri daşıyıb. Bununla bağlı Lavrov qeyd edib ki, danışıq iştirakçılarının tərkibini tərəflər müəyyən edib razılaşdırmalıdırlar: "Bu məsələ ilə bağlı həm prezidentlər, həm Baş nazir, həm xarici işlər nazirləri fikir bildiriblər. Bir daha qeyd edim ki, danışıq iştirakçılarının tərkibini tərəflər müəyyən edib razılaşdırmalıdırlar. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlarla bağlı məsləhətləşmələrin ilk mərhələsində, döyüşlər dayandırıldığı zaman Dağlıq Qarabağ müvafiq razılaşmaların, atəşkəsdən sonra başlanan müvafiq danışıqların iştirakçısı olub. Hansısa bir mərhələdə Ermənistanın əvvəlki prezidentlərindən biri qərara gəlib ki, Dağlıq Qarabağın maraqlarını İrəvan təmsil edəcək".

Lavrovun bu fikirləri, açıq-aşkar, Paşinyanın separatçı tərəfin danışıqlarda iştirak etməsi ilə bağlı istəklərinə dəstək verməsi anlamına gəlir. Halbuki, Paşinyan ilk vaxtlardan bəyan edir ki, əvvəllər separatçı qurum danışıqlarda tərəf olub. Guya Heydər Əliyevin prezidentliyi dövründə danışıqlara qatılıb, indi niyə olmasın. Hansı ki, Dağlıq Qarabağdakı separatçı qurum heç vaxt danışıqlarda tərəf olmayıb. Həmsədrlərin vasitəçiliyi ilə danışıqlar Azərbaycan və Ermənistan arasında aparılıb.

Maraqlıdır, bəs ekspertlər S.Lavrovun bu yanlış dəyərləndirməsinə necə yanaşırlar?

## *"Onun bu fikirləri reallıqdan tam uzaqdır"*

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Dağlıq Qarabağdakı separatçı qurum danışıqlarda heç vaxt tərəf olmayıb: "Lavrov təcrübəli diplomat olaraq bunu bilməmiş deyil. Ola bilsin ki, ilkin mərhələdə hansısa humanitar xarakterli danışıqlarda iştirak edib. Ancaq bu o anlama gəlmir ki, hansısa mərhələdə separatçı qurum tərəf olaraq danışıqlarda iştirak edib və yaxud da hansısa sənədə imza atıb. Ən azından, separatçıların buna hüquqi əsası yoxdur. Çünki separatçı tərəf heç vaxt danışıqlarda subyekt ola bilməz. Müharibə iki dövlət arasında (Azərbaycanla Ermənistan) gedib. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə də Azərbaycana və Ermənistana aid olub. Qətnamələrdə açıq şəkildə yazılıb ki, erməni tərəfi işğal olunmuş ərazilərdən qoşunlarını geri çəkməlidir. Ona görə də düşünmürəm ki, bütün bunları S.Lavrov bilmir. O, bütün bunları hamıdan yaxşı bilir. Lavrovun bu açıqlaması ermənilərin xeyrinə diplomatik manevrdir. Lavrov, bir növ, bununla Paşinyan rejiminə müsbət jest edir. Əslində isə onun bu fikirləri reallıqdan tam uzaqdır. Rusiya münaqişənin həllində maraqlıdırsa, o zaman daha dəqiq və hüquqa uyğun ifadələr işlətməlidir".

***Vidadi ORDAHALLI***

**"Əvvəlki konstitusiyalarda Dağlıq Qarabağ Muxtar Vilayətinə ayrıca fəsil həsr olunmuş, onun hüquqi statusu şişirdilmişdi". Bunu Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov 12 noyabr - Konstitusiya Günü münasibətilə "Facebook" səhifəsində yazdığı məqaləsində bildirib.**

*"O üzdən, həqiqətən də Heydər Əliyevin bütün bunlarda rolu böyükdür"*

# Heydər Əliyev Dağlıq Qarabağın şişirdilmiş statusunu 1978-ci ildə Azərbaycanın milli maraqlarına uyğun çərçivəyə necə qaytardı...

**Elşən Manafov:** *"Məhz 1978-ci ildə qəbul edilən yeni Konstitusiya sayəsində ermənilərin separatçı meylləri cilovlandı"*



Məqalədə qeyd edilib ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən Əsas Qanun müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin beşinci Konstitusiyasıdır: "1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas qanununu qəbul edə bilməmişdi. Ona görə də ilk Konstitusiya RSFSR-in Konstitusiyası əsasında hazırlanmış və 1921-ci il mayın 19-da qəbul olunmuş Azərbaycan SSR-in Konstitusiyası hesab olunur".

Məqalədə o da qeyd edilib ki, Azərbaycan SSR-in sayca dördüncü Konstitusiyası 1978-ci ildə, 1977-ci il SSRİ Konstitusiyası əsasında qəbul edilib: "Bu Konstitusiyanın hazırlanması və qəbulu o zaman Azərbaycana rəhbərlik edən Heydər Əliyevin iştirakı ilə həyata keçirilmişdi. Həmin sənəd milli maraqların qorunması baxımından əvvəlkilərdən xeyli fərqlənirdi. Məhz Ümummilli lider Heydər Əliyevin təkidilə 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu əks olundu. Əvvəlki konstitusiyalarda Dağlıq Qarabağ Muxtar Vilayətinə ayrıca fəsil həsr olunmuş, onun hüquqi statusu şişirdilmişdi. Bu Konstitusiyada isə Dağlıq Qarabağ və onun orqanlarının hüquqi statusu "Yerli dövlət hakimiyyəti orqanları" fəslinin içərisinə salınmış, yeni ona müstəsna əhəmiyyət verilməsinin qarşısı alınmışdı".

Qeyd edək ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayandan sonra ermənilərin separatçı meylləri cilovlandı. Bununla belə, 1978-ci ildə qəbul edilən Azərbaycanın dördüncü Konstitusiyası o dövrdə Azərbaycanın milli maraqlarına daha uyğun idi. Bu baxımdan həmin sənəddə DQMV-nin statusu ilə bağlı yeni məqamların əksini tapması məhz Heydər Əliyevin sayəsində mümkün olub.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elşən Manafovun fikrincə, o zaman dördüncü Konstitusiyada bir sıra məqamların öz əksini tapması məhz Heydər Əliyevin sayəsində mümkün oldu: "1978-ci ilin aprelində Azərbaycan SSR-in Konstitusiyası qəbul olunanda ölkəyə Heydər Əliyev rəhbərlik edirdi. Həmin sənədi əvvəlkilərdən fərqləndirən ən mühüm amil ondan ibarət idi ki, Azərbaycan dilinə dövlət dili statusu məhz dördüncü Konstitusiyada verildi. O zaman Azərbaycanla yanaşı, Gürcüstan, Ermənistan və Baltikyanı ölkələrdə bu müddəa öz əksini tapdı. Cənubi Qafqazda bununla bağlı ilk addımı isə məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan atdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ilə də bağlı vacib məqamlar orada öz əksini tapdı. Məsələ ondadır ki, Heydər Əliyevə qədər Vəli Axundov birinci katib olan dövrdə Dağlıq Qarabağda separatizmə meylli hadisələr baş vermişdi. Xüsusən də 60-cı illərin ortalarında. Həmin hadisələrin yaşanmasının bir səbəbi də 1937-ci ildə qəbul edilən Konstitusiyada DQMV-yə verilən böyük səlahiyyətlər idi. Yeni həmin səlahiyyətlərdən sui-istifadə edərək ermənilər bu addımı atırdılar. Bununla belə, ermənilər istəyirdilər ki, Dağlıq Qarabağa Muxtar Respublika statusu verilsin. Baxmayaraq ki, 1937-ci ilin Konstitusiyası onların xeyrinə idi, ancaq ermənilər bununla kifayətlənmək istəmirdilər. Heydər Əliyev çox böyük uzaqgörənliklə buna imkan vermədi. Dağlıq Qarabağda perspektivdə başlaya biləcək erməni separatizminin qarşısını almaq üçün Muxtar Vilayət statusunu saxladı. Ən başlıcası, Dağlıq Qarabağ və onun orqanlarının hüquqi statusu "Yerli dövlət hakimiyyəti orqanları" fəslinin içərisinə salındı. Məhz 1978-ci ildə qəbul edilən yeni Konstitusiya sayəsində ermənilərin separatçı meylləri cilovlandı. O üzdən, həqiqətən də Heydər Əliyevin bütün bunlarda rolu böyükdür".

***Vidadi ORDAHALLI***

---

**Noyabrın 10-11-də Ermənistanda səfərdə olan Rusiya xarici işlər naziri Sergey Lavrov Baş nazir Nikol Paşinyan, Prezident Armen Sarkisyan, xarici işlər naziri Zöhrab Mnatsakanyanla görüşlər keçirib.**

# Paşinyan İrəvandakı ABŞ laboratoriyalarının sirlərini Rusiyaya "satdı"...

**Mübariz Əhmədoğlu:** *"Rusiya mütəxəssislərinin ora cəlb edilməsi Ermənistan-ABŞ münasibətlərini gərginləşdirəcək"*



Mediaya sızan məlumatlardan bəlli olur ki, Lavrov erməni rəsmilərlə ikitərəfli münasibətləri, anti-Rusiya missiyası daşıdığı deyilən Amerikanın biolaboratoriyalarına rusların girişinin təmin edilməsi və inqilabdan sonra Moskvanın Ermənistandakı təsir imkanlarına, xüsusilə rus kapitalına qarşı elan olunmuş "müharibə"ni müzakirə edib.

Məlumata görə, səfər zamanı Ermənistandakı ABŞ maliyyəsi hesabına yaradılan biolaboratoriyalara Rusiya mütəxəssislərinin girişinə zəmanət verən memorandum əsas müzakirə mövzularından biri olub. Paşinyan hakimiyyəti Rusiya mütəxəssislərinin sözügedən laboratoriyaya girişinə razılıq verib. Əslində, bununla Moskva işğalçı ölkədə özünə təhlükə saydığı Amerika obyektini nəzarətə götürmək istəyir. Paşinyanın buna razılıq verməsi fonunda, buna Vaşinqtonun hansı reaksiya verəcəyi maraq doğurur. O baxımdan maraqlıdır, bu qərar ABŞ-Ermənistan münasibətlərinə necə təsir edəcək?

*"O baxımdan bunun mənfi fəsadları qaçılmazdır"*

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, bu qərar ABŞ-Ermənistan münasibətlərinə mənfi təsir edəcək: "Lavrovun Ermənistana gəlməsinin bir məqsədi də bununla bağlı idi. Lavrov bu səbəbdən Ermənistanı təriflədi. Hansı ki, bu biolaboratoriya ABŞ üçün mühüm əhəmiyyət kəsb edir. ABŞ-ın Ermənistandakı səfirliyindəki mütəxəssislərin yazdığına görə, artıq Ermənistanla İran sərhədindəki dağlarda hədsiz çoxsaylı bioloji sınaq keçirilib. Ancaq bütün bunlara baxmayaraq, İranın Ermənistana münasibəti mənfi mənada dəyişmir. Hansı ki, ABŞ Ermənistanda sözügedən biolaboratoriyanı məhz İrana görə açıb. Görünən odur ki, sözügedən laboratoriyalardan İrana qarşı tam istifadə edilir. Rusiya mütəxəssislərinin ora cəlb edilməsi Ermənistan-ABŞ münasibətlərini gərginləşdirəcək. Paşinyan hələlik müəyyən manevrlər edərək istəyir bundan taktiki olaraq yayınsın. Ancaq bu cür siyasi gedişlər bir yerə qədər olacaq. Yəni davamlı olaraq belə siyasət aparmaq mümkün deyil. O baxımdan bunun mənfi fəsadları qaçılmazdır".

***Vidadi ORDAHALLI***

**Argentina hökuməti İranın yüksək vəzifəli rəsmisinin Bakıya yaxın günlərdə edəcəyi səfər zamanı həbs olunub bu ölkəyə təhvil verilməsi üçün Azərbaycan tərəfinə rəsmi müraciət edib.**



# Azərbaycan qarşısında Xamneyinin məşhur müşavirini həbs etmək məsələsi qaldırıldı...

## *Qabil Hüseynli: "Həmin zamandan sonra Vilayətinin bəlkə də yüzlərlə xarici səfəri olub, niyə onu həbs etməyiblər?"*

Bu məlumatı "Yerusəlim Post" qəzeti yazıb.

Argentina hüquq-mühafizə orqanları İranın keçmiş xarici işlər naziri, hazırda Ali dini lider Əli Xamneyinin beynəlxalq məsələlər üzrə müşaviri olan Əli Əkbər Vilayətinin 1994-cü ildə Buones-Ayresdəki Yəhudi Mədəniyyət Mərkəzinə qarşı həyata keçirilmiş terror aktında iştirakına dair təkzibedilməz sübutlara malikdirlər. Vilayəti noyabrın 14-15-də Bakıda keçiriləcək ikinci Dini Liderlər Sammitində iştirak edəcək.

Bununla əlaqədar olaraq Argentina Xarici İşlər Nazirliyi Azərbaycanın Buones-Ayresdəki səfirini çağıraraq Əli Əkbər Vilayətinin Bakıda həbs olunmasını və Argentina tərəfinə təhvil verilməsinin təmin olunmasını tələb edib.

Argentina qanunvericiliyinə görə, ittiham olunan özünü məhkəmə qarşısında müdafiə etmək imkanında olmalıdır. Həmin terror hücumunu həyata keçirənlər iranlılar olduğuna və onların bir çoxunun hazırda İran siyasi eşelonunda yüksək postlar tutmasına görə 1993-cü ildə baş vermiş hadisəyə görə məhkəmə istintaqını irəli aparmaq mümkün olmur. Çünki həmin şəxslər Argentina torpağına ayaq basmadıqları üçün həbs edilməyiblər.

Məlumatda deyilir ki, Argentina XİN Vilayətinin Bakıdakı toplantıda iştirakının "dərin narahatlıq" yaratdığını bildirib və Azərbaycan tərəfini onun həbs olunub təhvil verilməsi üçün əməkdaşlığa çağırıb.

İranlı radikalları 1992-ci ildə Buones-Ayresdə İsrail Səfirliyinin partladılmasında da günahlandırırlar. Həmin hücumda 29 nəfər ölüb, 242 nəfər yaralanıb. O bombalı hücuma görə 2007-ci ildən bir qrup iranlı axtarışdadır. Onların arasında İranın Kolumbiyadakı keçmiş mədəniyyət attaşesi, molla Möhsün Rəbbani də yer alır. Rəbbani axtarışa veriləndən sonra həmin ölkəyə getməyib.

Məlumdur ki, Azərbaycanın İranla sıx bağlantıları var. Bura qonşuluq münasibətləri və başqa amilləri də əlavə edə bilərik. Argentinanın bu tələbini rəsmi Bakı yerinə yetirə bilərmi? Bunu etsək və ya etməsək, nə kimi dividendlər əldə edə bilər və təzyiqlərə məruz qala bilərik?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, rəsmi Bakı belə bir addım atmamalıdır: "Əminəm ki, heç atmayacaq da. Çünki söhbət yüksək rütbəli diplomatdan gedir. Özü də bizimlə yaxın qonşu olan, dövlət səviyyəsində ölkəmizə səfər edən yüksək ranqlı diplomatdan söhbət gedir. Onlar tələb edə bilər. Ancaq biz də bu işdə ağıllı və beynəlxalq qanunlara uyğun şəkildə davranmalıyıq. Biz özümüzü bu həcmdəki beynəlxalq qalmaqala soxa bilmərik. Hətta beynəlxalq səviyyədə qırmızı xətlə axtarılırsa belə, bizim onu həbs etməyə ixtiyarımız yoxdur. Çünki həmin şəxsin diplomatik ranqı mövcuddur. Əminəm ki, Vilayəti yalnız Azərbaycana səfər etmir. Onun başqa xarici ölkələrə də səfərləri olursa, niyə həmin ölkələrdən onun həbsi tələb edilmir? İranla bizim normal qonşuluq münasibətlərimiz var. Bizim üçün həmin münasibətlərin bu şəkildə qalıb davam etməsi məqbuldur. Argentinada baş verən qanlı hadisəni biz də pisləyirik. Hər cür terrora qarşıyıq, amma bu heç də o anlama gəlmir ki, ölkəmiz özünü çıxılmaz duruma salmalıdır. Həmin ölkənin qurumlarının əlində cinayətdə Vilayətinin iştirakının olduğuna dair təkzibedilməz faktlar varsa, qoy həmin dəlilləri elə İranın özünə təqdim etsinlər. Həmin zamandan sonra Vilayətinin bəlkə də yüzlərlə xarici səfəri olub, niyə onu həbs etməyiblər? Deməli, hansısa maraqlı qüvvələr bu üsulla Azərbaycan-İran münasibətlərini gərginləşdirməyə çalışırlar".

*"Biz kiminsə istəyinə görə dövləti maraqlarımızı qurban verməməliyik"*

Politoloq hesab edir ki, bununla bağlı Azərbaycanın itirəcəyi nəsə olmayacaq: "Düzdür, bəzi ağzıgöyçəklər buna görə bizi qınaya bilər. Olsun. Biz kiminsə istəyinə görə dövləti maraqlarımızı qurban verməməliyik. Beynəlxalq hüquq normalarına görə də biz həmin adamı həbs edə bilmərik. Hər hansı zərərin dəyəcəyi barədə düşünməyə dəyməz".

***Məhəmmədəli QƏRİBLİ***

**Erməni KİV-i qondarma qurumun "rəsmilərinə" istinadən separatçı qurumun qərar tutduğu Dağlıq Qarabağ ərazisi ilə Ermənistan arasında yaxın zamanlarda rouminq tarifi üzrə danışıqların ləğv ediləcəyini qeyd edir. Bu barədə məlumatı separatçı qurumun "xarici işlər naziri" Masis Mailyan öz "Facebook" səhifəsində yazıb.**




# İrəvanla qondarma "DQR" arasında rouminq yığışdırmaq xülyası - Qarabağa yeni mobil operator necə gələ bilər...

## *Osman Gündüz: "Yadınızdadırsa, bizim dövlətin kəskin etirazları fonunda həmin operatorlar öz səhifələrində yazdılar ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir"*

O bidirib ki, telekommunikasiya sahəsində monopoliyaya 2020-ci ildən son qoyulacaq: "Bizdə ikinci mobil operator fəaliyyətə başlayacaq. Bunun üçün həm investorlar, həm də təcrübəli mütəxəssislər var".

M.Mailyan ən əsası isə bildirib ki, yeni operatorun gəlişilə Ermənistanla qondarma qurumun qərar tutduğu Azərbaycan əraziləri arasında rouminqsiz mobil danışıqları həyata keçiriləcək.

Qondarma qurumun hazırda məskən tapdığı Azərbaycan ərazsizində hansısa xarici ölkə ilə belə danışıqları təmin etmək üçün mütləq mənada ölkəmizin razılığı olmalıdır. Hansısa operator buna gedərsə, təbii ki, beynəlxalq müstəvidə qalmaqalla qarşılaşa bilər. Eyni zamnda, bu həmin operator üçün böyük məhkəmə cərimələri ilə nəticələnə bilər. Hansısa beynəlxalq mobil operator belə risqlərin fonunda deyilən addımları ata bilərmi?

İnformasiya texnologiyaları üzrə ekspert Osman Gündüz "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bir mesajın verilməsi ilə tanış deyil: "İstənilən halda, bu xoşagələn məsələ deyil. Çünki ermənilər belə cəhdləri dəfələrlə edibdər, hər dəfə də Azərbaycanın haqlı etirazı ilə qarşılaşıblar. Çünki burada söhbət bizim ərazimizdə qurulan mobil xidmətdən gedir. Bunu edənlər isə, mütləq mənada, bizim razılığımızı almalıdırlar. Bu qaydalara əməl etməyən mobil operator ciddi problemlərlə üzləşə bilər. Hətta Azərbaycan tərəfi bu cür fəaliyyəti gözünün önünə alan operatoru ciddi məbləğdə cərimələdə bilər. Təbii ki, ermənilərin marağındadır ki, separatçı qurumu informasiya blokadasından çıxarmaq üçün, onları hansısa mobil operator vasitəsilə qlobal dünyaya calasınlar. Bundan əvvəl də müxtəlif mobil operatorlarla belə cəhdləri edibdər. Hər dəfə də bizim etirazımız nəticəsində istəkləri baş tutmayıb. Son zamanlara kimi onlar bu məsələni dillərinə gətirmirdilər. Yenidən mövzunu aktuallaşdırıblarsa, biz məsələni diqqətdə saxlamalıyıq. Belə istəkdə olan Rusiyanın bir-iki mobil operatoru da vardı. Yadınızdadırsa, bizim dövlətin kəskin etirazları fonunda həmin operatorlar öz səhifələrində yazdılar ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.Diqqətli olmalıyıq. Ola bilər ki, hansısa mobil operatoru yenidən öz tələlərinə sala biliblər. Qətiyyən yol verməmk olmaz ki, hansısa operator orada rouminq fəaliyyəti qursun. Xüsusən də Ermənistanla rouminqsiz danışıq aparmaq beynəlxalq qanunlara meydan oxumaq anlamına gələr".

***Məhəmmədəli QƏRİBLİ***

# BMT TŞ-nin 4 qətnaməsini mənasız kağız parçasına çevirmiş Paşinyanın Baş katiblə anlaşılmaz "selfi mehribanlığı"...

**Fransada səfərdə olan Ermənistan Baş naziri Nikol Paşinyan həmsədr ölkə Prezidenti E.Makronun verdiyi ziyafətə qatılıb. Erməni saytlarının yaydığı məlumatdan işğalçı ölkə liderinin BMT Baş katibi Antonio Quterreşlə ayaqüstü görüşdüyü bəlli olub.**



## *Hatəm Cabbarlı: "Onun səmimi şəkil çəkdirdiyi adamın rəhbərlik etdiyi ölkə BMT-nin 4 qətnaməsini yerinə yetirmir"*

Paşinyan BMT rəhbərinə yanaşaraq selfi də çəkdirib və onu "Facebook"da paylaşıb.

Məlumdur ki, BMT-nin Ermənistan Silahlı Qüvvələrinin Qarabağdan çıxarılması haqda 4 qətnaməsi var. Həmin qətnamələr Ermənistan tərəfindən icra olunmayıb. BMT Baş katibinin belə bir ölkənin başçısı ilə yaxından, mehribançılığı ifadə edən fonda şəkil çəkdirməsi maraqlı görünür. Qeyd edək ki, Paşinyanın Quterreşlə çəkdirdiyi selfi sosial şəbəkələrin Azərbaycana aid seqmentində ciddi narazılıqla qarşılanıb. BMT Baş katibinin atdığı bu addımı necə dəyərləndirmək olar?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, BMT Baş katibinin atdığı bu addım onun təmsil olunduğu qurumun nüfuzuna böyük zərbə vurur: "Ermənistanın həm daxili, həm də xarici siyasətində yaşananları diqqətlə izlədikdə məlum olur ki, Nikol Paşinyan üçün heç də yaxşı perspektiv vəd olunmur. Buna görə də Paşinyan hər dəfə xarici səfərlərində tanınmış adamlara yaxınlaşır, ayaqüstü olsa da, onlarla söhbət etməyə çalışır. Ən yaxşı bacardığı işlərdən biri də selfi çəkdirməkdir. Biz bunu onun Fransaya son səfəri zamanı da izləyə bildik. Paşinyan öz səhifəsində yalnız BMT Baş katibi ilə çəkdiyi selfini paylaşmayıb. O, eyni zamanda, Fransa Prezidenti və beynəlxalq "Frankafon" təşkilatının rəhbəri ilə də çəkdiyi selfiləri paylaşıb. N.Paşinyan müasir texnologiyalardan yararlanmaq kimi göstərdiyi fəaliyyəti ucuz vasitələrlə həyata keçirir. Bu cür şəkillərin paylaşılması Ermənistanda son zamanlar yaşanan gərginliyi aşağı salmağa yönəlib. Paşinyan onun beynəlxalq dairələrdə necə səmimi qəbul edildiyi rəyini formalaşdırmağa çalışır. Əlbəttə, bu elə deyil. Quterreşlə də ayaqüstü görüşüb və fürsətdən istifadə edərək həmin şəkli çəkdirib. Ciddi siyasi xadimlər olan dövlət başçıları sosial şəbəkələrdən istifadə edirlərsə, onların adından yalnız rəsmi xəbərlər paylaşılır. Həmçinin, həmin ölkə başçılarının əlamətdar günlərdə xalqa ünvanladıqları təbriklər çatdırılır. Paşinyan isə virtual aləmdə də populizmlə məşğuldur, bu da onun qeyriciddiliyindən xəbər verir. Quterreş də təbii ki, bu incə detala diqqət etməli idi.

Çünki onun səmimi şəkil çəkdirdiyi adamın rəhbərlik etdiyi ölkə BMT-nin 4 qətnaməsini yerinə yetirmir. Bu şəkildən Paşinyan dividend götürsə də, Quterreş isə qara piara məruz qalıb. Çünki görmüşük ki, BMT onun qətnamələrini icra etməyən ölkələrə sülhməramlı qoşunlarını yeridir. Onda isə Paşinyana bəslənən bu münasibət nədən xəbər verir? Bu ranqda olan adamlar kiminlə, hansı şəraitdə şəkil çəkdirmələrinə xüsusi diqqət etməlidirlər".

**Məhəmmədəli QƏRİBLİ**

# Lavrov uydurma "genosid abidəsi" önündə əyildi - Azərbaycan bir yana, bəs Türkiyə ilə müttəfiqlik duyğusu?

**Məlum olduğu kimi, Ermənistanda rəsmi səfərdə olmuş Rusiyanın xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyəti İrəvanda Sisernakabert memorial kompleksində qondarma "erməni soyqırımı" abidəsini ziyarət edib, əbədi məşəl önünə əklil qoyub.**



## *Məhəmməd Əsədullazadə: "Lavrovun bu addımı inkişaf edən Rusiya-Türkiyə əlaqələrinə zərbədir"*

Bu azmış kimi, Rusiya XİN başçısı və nümayəndə heyətinin üzvləri daha sonra xatirə xiyabanından keçib, küknar ağaclarını suvarıb. Hansı ki, Lavrov həm də 12 il əvvəl "soyqırım" abidəsi önündə əkdiyi ağacın dibinə su töküb.

Qeyd edək ki, S.Lavrov Ermənistana səfər zamanı bir sıra rəsmi şəxslərlə görüşlər keçirib.

Lavrovun Ermənistana və ermənilərə olan dərin rəğbəti bəllidir. Hansı ki, Lavrov bunu zaman-zaman müxtəlif formalarda büruzə verib. Ancaq Lavrov anlamalıydı ki, Rusiyanın maraqları daha öndə gəlir. Məsələ ondadır ki, son illər Rusiya ilə Türkiyə arasında çox ciddi yaxınlaşma müşahidə edilir. İstər siyasi-iqtisadi, istərsə də digər sahələrdə iki ölkə arasında münasibətlərdə ciddi inkişaf mövcuddur. Türkiyə NATO üzvü olmasına baxmayaraq, Rusiyadan bir sıra müasir silahlar alır, Suriya məsələsində tərəflər arasında anlaşma mövcuddur. Suriya ilə bağlı bir sıra məsələlərdə Rusiya ilə Türkiyə ortaq məxrəcə gəlib birgə hərəkət edirlər. Bir sözlə, Rusiya-Türkiyə münasibətlərinin sürətlə inkişaf etdiyi bir dövrdə Lavrovun qondarma "erməni soyqırımı" abidəsini ziyarət etməsinə nə ehtiyac var idi? Tutaq ki, Ermənistan tərəfi bunu səfər protokoluna daxil edib. O zaman Lavrov Rusiya-Türkiyə münasibətlərinin hazırkı səviyyəsini nəzərə alıb bundan imtina edə bilərdi. Ancaq o bunu etmədi.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Lavrovun bu addımı iki ölkə münasibətlərinin hazırkı səviyyəsinə zərbədir: "Rusiya xarici işlər naziri S.Lavrovun Ermənistana səfəri zamanı orada qondarma "erməni soyqırımı" abidəsinə əklil qoyması inkişaf edən Rusiya-Türkiyə əlaqələrinə zərbədir. Ümumiyyətlə, Lavrov daim Türkiyə və Azərbaycana qarşı Ermənistanın yanında yer alıb. O, ənənəvi Rusiya siyasətini həyata keçirməklə yanaşı, çox vaxt qırmızı xətti də keçir.

## *"...soyqırım abidəsi"ni səfər protokoluna salmağa imkan verməməli idi"*

Beynəlxalq siyasətdə buna yol vermək olmaz. Təcrübəli diplomat olan Lavrov qəsdən buna gedərək, bir növ, Azərbaycan və Türkiyəyə qarşı mənfi siyasəti ortaya qoymuş oldu. O, son illərdə sıxlaşan Türkiyə-Rusiya əlaqələrini nəzərə alıb qondarma "soyqırım abidəsi"ni səfər protokoluna salmağa imkan verməməli idi.

Bunu etmirsə, demək, Moskvanın siyasətinə erməni lobbisinin təsiri var. Təəssüf ki, Lavrovun siyasəti regionda sülh və təhlükəsizliyə deyil, etnik münaqişənin qızışdırılması və işğala stimul yaratmaqla separatizmə dəstək verir. Təbii ki, bu təkcə Lavrov timsalında deyil. Bu, Kremlin imperialist siyasətinin bariz nümunəsidir. Dünyada şərtlər dəyişir, beynəlxalq siyasətdə yeni yanaşmalar ortaya çıxır. Lavrov isə əməkdaşlığa və birgə sülhə qarşı çıxır. Rusiyanın xarici siyasətində dəyişməyən bu tendensiya regionda sülhə xidmət etmir".

**Vidadi ORDAHALLI**

# "Ermənistan" dünyada ilk xristian dövlətidirsə, onda Roma Papası kimdir...

**Yalan yaymaqda, beynəlxalq rəyi çaşdırmaqda pərgar olan erməni mediası gündə bir iddia və əsası olmayan fikirlərlə gündəmi dəyişməyə cəhd edir. Xristianlığın özünə yamaq olan və xristianlıqda ilk parçalanmanın səbəbkarı olan ermənilər özlərini xristianlığın "dayağı" adlandırmaqdan çəkinmirlər.**

Son zamanlara qədər erməni lobbisinin əlində oyuncaq olan bəzi tarixçilər, eləcə də saxta tarix yaratmaqda mahir olan erməni alimləri iddia edirdilər ki, guya Ermənistan xristianlığı rəsmi şəkildə qəbul edən ilk dövlət olub. Bu gün isə erməni mediası həmin iddianı Roma Papasının katibi Riçard Qallaherin adından yayımlayıb. Guya ki, Vatikan rəsmisi Riçard Qallaher İrəvanda olarkən erməni mediasına belə bir söz deyib.

"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev öz "Facebook hesabında bu məsələyə dair paylaşdığı "Roma Papasının katibi Riçard Qallaher də ermənilər ağıldadır" yazısında qeyd edir: "Vatikanın katibi R.Qallaher İrəvandadır və erməni mediası onun adından bəzi sərsəm cümlələr yayıb. Guya Qallaher deyib ki, Ermənistan xristianlığı dövlət səviyyəsində qəbul etmiş ilk ölkədir... Riçard həqiqətən bu sözləri deyibsə, elə onun özü də ermənilərin tayıdır. Papanın çörəyi, etdiyi ibadət Riçarda haram olsun ki, ermənilərin İrəvanda qısdırdığı hansısa hədiyyəyə görə onsuz da kifayət qədər uydurma və əfsanələrlə dolu olan xristianlığın tarixini bu qədər təhrif edir.

Dostlar, rəsmi dəlilik kağızı olan adam da bu Riçard kimi danışmazdı.Tarixin dəyişməz hökmü budur ki, İsa peyğəmbərin qanı hələ çarmıxda qurumamış və onun həvarilərinə hər yerdə divan tutulduğu 1-ci əsrdə xristianlıq rəsmi səviyyədə ilk dəfə bizim Albaniya dövlətində qəbul olunub, bundan təxminən 250-300 il sonra, eramızın 323-cü ilində Bizans imperatoru Böyük Konstantin xristianlığı Bizansın dövlət dini kimi qəbul etdi. Adı Pol olduğu kimi, tarixi bilikləri də "pol", yəni yarımçıq olan bu Pol Riçard Qallaher anlamır ki, o dövrdə Ermənistan adında dövlət olmayıb... Görünür, bu, Riçard Bizansın Roma papalarından qabaq xristianlığı qəbul etməsinin düşmənçiliyini hələ qovur və Bizansı bağışlaya bilmir. Qisasçılıq görün nə həddədir ki, hətta harada olduğu bilinməyən Ermənistanda xristianlığın Bizansdan əvvəl qəbul edildiyi nağılına inanırlar... Ermənilər Vatikan mənsublarının da başlarını tovlayaraq inandırıblar ki, guya Ermənistanda xristianlıq 301-ci ildə rəsmi dövlət dini kimi qəbul edilib. Elə buna görə Papa 2001-ci ildə xristianlığın dövlət dini kimi qəbul edilməsinin guya 1700 ilini qeyd etmək üçün İrəvana gəlmişdi...

Yalançıya bir olan Allahımız qənim olsun ki, Ermənistan xristianlığı rəsmi dövlət dini kimi qəbul etmiş ilk ölkədir, Riçard!...".

Tarixçilərin fikrincə də Roma Papasının katibinin Ermənistanı xristianlığı dövlət səviyyəsində qəbul etmiş ilk ölkə adlandırması böyük riyakarlıq və saxtakarlıqdır. Tarixçilər qeyd edirlər ki, xristianlığın yarandığı və yayıldığı həmin dövrdə tarixdə Ermənistan adlı dövlət olmayıb, ermənilər özləri isə müxtəlif dövlətlərin qoltuğunda yaşayıblar.

Məlumatlara görə, 70-ci ildə Yerusəlimdən (Qüdsdən) yəhudilərin Qafqaza köçürülməsi güclənir. Gələnlər İsanın göstərdiyi möcüzələrdən danışırlar, İsanın Məsih olduğu haqqında müjdəni yayırdılar. Bu cür təbliğin təsiri altında bölgədə ilk xristian icmaları yaranır. Albaniyada xristianlığın yayılmasında bu dövr həvarilərin dövrü adlanır və həvarilərdən Varfolomey və Faddeyin adları ilə bağlıdır. Həvari Faddeyin şagirdlərindən biri olan Yelisey Yerusəlimin birinci patriarxı Yaqubun xeyir-duası ilə yeni dini təbliğ edə-edə Aqvan diyarına gəlib çıxmış və Kiş adlı yerdə kilsə tikmişdir. Bu kilsə indiki Ermənistandakı birinci xristian kilsəsindən qabaq tikilmişdir. Sonra Yelisey Çolaya (Dərbəndə) yollanmış, daha sonra isə Samur çayını keçib dinin təbliğini davam etdirmiş, Helmes kəndində bütpərəstlər tərəfindən öldürülərək bir çalaya atılmışdır. Sonralar Alban məliki Vaçaqanın göstərişi ilə Yeliseyin cəsədinin qalıqları Xruq kəndində torpağa tapşırılmış, çalanın üzərində isə kiçik bir məbəd tikilmişdir.

313-cü ildə Alban hökmdarı Urnayr xristianlığı rəsmi dövlət dini elan edir. Bu vaxtdan etibarən Azərbaycanda xristianlığın yayılmasının qrekofil dövrü adlanan yeni dövrü başlanır. Urnayr, II Vaçe və III Vaçaqan ölkədə xristianlığı yaymaq işini aparmışlar. IV-V əsrlərdə ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapır. Bölgədə kilsələr tikilir, dini kitablar siryani, arami və yunan dillərindən alban dilinə tərcümə edilirdi. Sinayda aşkar edilmiş "Alban yazısında və dilində" leksionari dünyada xristianlığın ən qədim kütləvi qiraət kitablarından sayılır.

451-ci ildə Xalkidon kilsə toplantısında Albaniya monofizitliyə üstünlük verir. V-VI əsrlərdə ölkə ərazisində monofizitlərlə diofizitlər arasında mübarizə güclənir. VI əsrin sonu - VII əsrin əvvəllərində Alban kilsəsi diofizitliyi qəbul edir.

Alban katolikosunun iqamətgahı Çoqay şəhərində yerləşirdi. 552-ci ildə iqamətgah Bərdəyə köçürülmüşdür. İslam fütuhatlarından, xüsusilə Alban məlikliyinin süqutundan sonra ölkədə xristianlığın rolu zəifləmiş, kilsələrdə ibadət erməni dilində aparılmış, alban dili sıxışdırılıb çıxarılmışdır. VIII-IX əsrlərdə Azərbaycan ərazisində müstəqil dövlətlər yarananda Alban kilsəsi yenidən avtokefal kilsə statusunu bərpa etmişdir. X-XI əsrlərdə bölgədə Şərq xristianlığı nüfuzunu müəyyən dərəcədə qoruyub saxlaya bilmişdi. Bu durum XVIII əsrə kimi beləcə davam etmişdir. 1836-cı ildə çar hökuməti Sinodun təqdimatı ilə Alban kilsəsini ləğv edir, kilsənin bütün əmlakı Eçmiədzin katolikosluğuna verilir. XX əsrin 80-90-cı illərində Alban kilsəsi bir daha bərpa olunur. 2003-cü ildə Alban-udi xristian icması dövlət qeydiyyatından keçir. Bu, Şəkidəki Kiş kilsəsinin bərpasından sonra olmuşdur. Hazırda Qəbələ rayonunun Nic kəndindəki kilsənin də bərpası davam etdirilir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Vatikan rəsmisinin belə bir fikir səsləndirməsi gülüncdür. O hesab edir ki, erməni fitnəsinə uyan Vatikan təmsilçisinin belə bir fikir bildirməsi inandırıcı görünür. Q.Hacıyevin sözlərinə görə, müasir xristian dünyası bütün gücləri səfərbər edərək xristianlığın ilk dəfə Albaniya ərazisində qəbul edilməsi həqiqətini tarixdən silmək istəyir. Bu məsələdə onların ermənilərdən istifadə etdiyini deyən Q.Hacıyevin sözlərinə görə, xristianlıq yayıldığı dövrlərdə ermənilərin nə dövləti, nə də hər hansı bir icması olub, onlar müxtəlif dövlətlərin himayəsində yaşayıblar. Həmin dövrdə Qafqazda, Albaniya ərazisində isə, ümumiyyətlə, ermənilərin olmadığını deyən Q.Hacıyev bildirdi ki, xristianlıq Azərbaycan ərazisinə yeni eranın ilk əsrlərində, hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz edib. "Vatikan katibinin İrəvanda belə bir fikir səsləndirməsi inandırıcı görünür. Bu yeni məsələ deyil, Riçarddan əvvəl bu fikirlər erməni tarixçilərinin adından erməni mediasında yaılmışdı. Bu gün də həmin fikirləri ermənilər Vatikan rəsmisinin adından yayırlar. Bilirsiniz, son zamanlar bu fikri ortaya atanların məqsədi bəllidir. Bəzi rus alimləri də artıq bu kampaniyaya qoşulublar. Bu da, Vatikan sözçüsünün adından yayılan fikirlər də sözsüz ki, ermənilərin apardığı təbliğatın nəticəsidir. Digər tərəfdən, heç ağlımıza gəlməzdi ki, yalan bu qədər ayaq tutub yeriyə bilər. Hesab edirdik ki, həm katolik, həm pravoslav kilsəsinə böyük hörmətsizlik edən, xristianlıqda parçalanmanın, bölücülüyün əsasını qoyan erməni-qriqoryan kilsəsinin neqativ fəaliyyətinə elə xristian dünyasının özündən tepkilər göstəriləcək. Amma təəssüf ki, biz bunu görə bilmədik. Həm katoliklər, həm də provaslavlar yaxşı bilməlidirlər ki, xristianlığın bu vəziyyətə düşməsində, təhriflərə uğradılmasında qondarma erməni-qriqoryan kilsəsinin böyük rolu var. Xristianlığı ermənilər Romadan, Bizansdan sonra qəbul ediblər, bu ölkələrdən əvvəl isə xristianlığı Albaniya dövləti qəbul edib. Bu gün ermənilərə havadarlıq edən Vatikan rəsmisi bilmirmi ki, xristianlığı rəsmi dövlət dini olaraq ilk qəbul edən Albaniya dövləti olub, niyə həqiqəti danıb, riyakarlıqla məşğul olur? 313-cü ildə Alban hökmdarı Urnayr xristianlığı dövlət dini elan edir. Bu vaxtdan etibarən Azərbaycanda xristianlığın yayılmasının qrekofil dövrü adlanan yeni dövrü başlanır" - deyə Q.Hacıyev vurğuladı.





***Aydın Quliyev:** "Qisasçılıq görün nə həddədir ki, hətta harada olduğu bilinməyən Ermənistanda xristianlığın Bizansdan əvvəl qəbul edildiyi nağılına inanırlar"*

***Qasım Hacıyev:** "...xristianlığı rəsmi dövlət dini olaraq ilk qəbul edən Albaniya dövləti..."*

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan danışıqları davam etdirməyin mənasızlığını daha çılpaq ortaya qoyur...

**Cari ilin ötən dövrü ərzində Azərbaycan ordusu müxtəlif miqyasda çoxsaylı təlimlər keçirib. Əvvəlki vaxtlardan fərqli olaraq, bu təlimlərin hər biri Ermənistanda geniş rezonans doğurub və əsas müzakirə predmetlərindən birinə çevrilib.**

Çünki düşmən ölkədə də yaxşı bilirlər ki, Ermənistanın mövqeyi üzündən dalana dirənən Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqların davam etdirilməsinə bu gedişlə ehtiyac qalmayacaq və belə olan təqdirdə də güc amilindən istifadə ön plana çıxacaq.

O da düşmən tərəfə yaxşı bəllidir ki, güc amilində Azərbaycan kifayət qədər ön yerdədir və bu şəraitdə münaqişənin ordu vasitəsilə çözülməsi Ermənistanın yeni sarsıdıcı zərbələr alması anlamına gəlir. Məhz bu fonda ordumuzun təlimlərinin getdikcə düşməni daha böyük miqyasda təşvişə salması da təbii qarşılana bilər. İlk növbədə o baxımdan ki, bu təlimlər yalnız və yalnız Azərbaycan ordusunun güclənməsi, döyüş bacarığının daha da təkmilləşdirilməsi məqsədilə aparılır. Elə Azərbaycan ordusu miqyasında başlanan daha bir əməliyyat təlimi də bu qəbildən sayıla bilər. Yeni üç mərhələli təlimin əsas məqsədi şərti düşmənin təxribatlarının qarşısını almaqla hücum əməliyyatlarının aparılması zamanı qərargahların və qoşunların idarəetmə orqanlarının hazırlığının, eləcə də ümumqoşun birlikləri, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsidir.

Təlim şərti düşmənin döyüş imkanları nəzərə alınmaqla Azərbaycan ordusunun sərəncamında olan yeni növ silah və hərbi texnikanın tətbiqi ilə dağ, dağ-meşə, mürəkkəb radioelektron və real iqlim şəraitində qoşunların qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və komandirlərin idarəetmə bacarıqlarının artırılması ilə icra olunacaq. Əməliyyat təlimində qoşunların dayanıqlı, fasiləsiz, operativ və gizli idarəedilməsi, qərargahların səhra idarəetmə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi, videokonfranslar və fiberoptik kommunikasiya xətləri vasitəsilə sərəncam və əmrlərin taktiki və əməliyyat səviyyəsində sürətli ötürülməsi və şəraitə uyğun olaraq qərarların qəbul edilməsi üzrə vərdişlər məşq ediləcək.

Bütün bunların isə yalnız bir məqsədi var. O da, zərurət yarandığı halda, işğal altında olan ərazilərin Silahlı Qüvvələr vasitəsilə azad edilməsidir. Məhz bu fonda ordunun qarşısına qoyulan tapşırıqların həyata keçirilməsi üçün təlimlər təşkil olunur. Danışıqlar arzuolunan nəticələrə səbəb olmadığı halda ordunun imkanlarından istifadə etməklə Ermənistanın işğal siyasətinə son qoyulması ehtimalı da belə bir vaxtda əhəmiyyətli dərəcədə artır. Ekspertlər də qeyd edir ki, Azərbaycan ordusunun bu təlimlərinin nəticələrini hərbi əməliyyatlar başlayan zaman görmək mümkün olacaq. Düşmən tərəfdə də xüsusi diqqətlə izlənən hərbi təlimlərin sayının artırılması Ermənistanda əvvəlki kimi kifayət qədər narahatlıq yaradıb. Əslində, Azərbaycan ordusunda davamlı islahatlar, texnikaların sayının artırılması, texniki imkanların yaxşılaşdırılması, şəxsi heyətin döyüş bacarığının təkmilləşdirilməsi düşmən ölkəni narahat etməyə bilməz. Çünki onlar yaxşı başa düşürlər ki, Azərbaycan ordusunun döyüş imkanlarının yaxşılaşdırılmasına yönələn bu təlimlər sonda Ermənistan üçün pis nəticələnəcək. Bunu erməni hərbi ekspert Karen Ovhannisyan da xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, Azərbaycan bu təlimlərlə kifayət qədər aydın mesajlar verir: "Təlimlərdən savayı diqqət çəkən məqamlardan biri də Azərbaycanın hərbi hissələridir. Azərbaycanın, deməli olar, bütün cəbhəboyu hərbi hissələrində bizə ünvanlanan mesajlar var, bunları yalnız yuxarıdan müşahidə aparar-kən oxumaq olar". O bildirib ki, bunlar əsasən "Şəhidlər ölməzdir", "Azərbaycan ordusu", "Ayrılmaz vətən", "İrəli vətən", "Ordum varsa, evim var" kimi mesajlardır: "Sondakı "Ordum varsa, evim var" qeydi kifayət qədər diqqəti cəlb edəndir. Bu, elə bir şeir başlığıdır ki, orada "Mən düşmənin yuvasını öz əlimlə dağıdacam" kimi istəkli sözlər deyilir. Bu kimi mesajlar əsasən 2019-cu ilin yazından başlayaraq ortaya çıxıb. Azərbaycan sülhdən nəticə olmadığını görüb, müharibə istəyir və öz cəmiyyətini məhz müharibəyə hazırlayır. İntensivləşən ordu təlimləri də bununla bağlıdır. Son təlimlərə bütün ordu cəlb olunub və Azərbaycan bu il artıq neçənci təlimlərdir keçirir. Aydın məsələdir ki, bu təlimlər hərbi əməliyyatların məşqidir və bu gedişlə həmin hərbi əməliyyatlar mütləq baş tutacaq". Digər erməni hərbi ekspert Taron Ovhannisyan da eyni mövqeni bölüşür. O, Azərbaycan ordusunun yeni təliminin təsadüf olmadığını və Ermənistan üçün narahatlığa əsas yaratdığını bildirib. Erməni ekspert vurğulayıb ki, təlimlər müdafiə xarakterli deyil, əsl hücum məşqləridir. Bununla da Ovhannisyan Azərbaycan ordusunun hərbi təlimlərinin miqyası və xarakterinin Ermənistan üçün ciddi təhdid olduğunu bəyan edib.

Rusiyanın hərbi eksperti Yevgeni Mixaylov da qeyd edir ki, erməni tərəfinin narahatlığı heç də əbəs deyil. O, mütəmadi hərbi islahatlar nəticəsində Azərbaycan ordusunun nəinki regionun, dünyanın belə ən güclü orduları ilə bir sıraya daxil olduğunu diqqətə çatdırıb: "İstər müdafiə, istərsə də hücum əməliyyatlarını təkmilləşdirməyə yönələn təlimlər ordunun təchizatının da, hazırlığının da ən yüksək səviyyədə olduğunu söyləməyə əsas verir". Mixaylovun fikrincə, istər Rusiyadan, istərsə də başqa ölkələrdən müasir silahlar tədarük etməklə hərbi qüdrətini artıran Azərbaycanın bu siyasəti Ermənistanı təşvişə salır: "2018-ci ilin may ayında Naxçıvan istiqamətində işğal altındakı torpaqların bir hissəsini geri qaytarmaqla Azərbaycan ordusu döyüş qabiliyyətini ortaya qoydu. Aprel döyüşləri də yaddan çıxmayıb. Heç şübhəsiz, o vaxt döyüşlər dayandırılmasaydı, bu gün bölgədə fərqli gerçəkliklə üz-üzə olardıq. Yalnız üçüncü qüvvələrin diplomatik müdaxiləsi Ermənistanı zahiri dövlətçiliyini qoruyub saxlamağa kömək edib. Amma Azərbaycan bu vəziyyətə uzun müddət dözmək niyyətində də deyil və bunu Ermənistan yaddan çıxarmamalıdır".

Digər rus hərbi ekspert İqor Korotçenko isə vurğulayır ki, təlimlərdə yeni silahların sınaqdan çıxarılması Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüyünü göstərən daha bir faktordur. Çünki Azərbaycandan fərqli olaraq, Ermənistanın belə yeni silahlar almaq imkanları yoxdur: "Azərbaycan davamlı şəkildə yeni silahlar alır. Əsas tədarükçülərindən biri isə yenə Rusiya olaraq qalır. Ermənistan tərəfindən Rusiyanın Azərbaycana silah satmasına görə etirazlar hər zaman olur. Amma bunun praktik baxımdan heç bir təsiri yoxdur". Onun sözlərinə görə, həm Rusiya, həm də Belarus Azərbaycana müasir silahlar satıb və satmaqda davam edəcək: "Vəziyyət dəyişməyəcək. Üstəlik, prezidentlər Vladimir Putin və İlham Əliyev arasındakı son görüşlərdə təsdiqləndi ki, Azərbaycan Rusiyanın hərbi-texniki əməkdaşlıq sahəsində ən vacib tərəfdaşlarından biridir və Rusiya silahlarının davamlı tədarükünə arxalana bilər. Ermənistan rəsmilərinin səsləndirdiyi bəyanatlar isə bunu heç bir şəkildə dəyişə bilməz. Rusiya hər dəfə bildirir ki, Azərbaycana müasir silah tədarükü hər hansı üçüncü ölkəyə qarşı deyil, Azərbaycanın suverenliyini və milli təhlükəsizliyini möhkəmləndirməyə yönəlib. Ermənistan hesab edir ki, onun hüquqları pozulur, amma istədiyini düşünə bilər. İrəvanın narazı olması faktı başadüşüləndir, çünki Azərbaycan Silahlı Qüvvələri daha müasir, güclü və keyfiyyətli olur. Rusiya silahları Azərbaycan ordusunun imkanlarını xeyli artırır. İnanıram ki, Bakının müasir yüksək dəqiqlikli Rusiya silahlarına olan istənilən tələbi, marağı ən qısa zamanda nəzərə alınacaq və təmin ediləcək".

Ekspert deyib ki, Ermənistanın da Rusiya silahlarını aldığını unutmaq olmaz: "Əlbəttə, Moskvanın mövqeyi budur ki, bölgədə tarazlıq qorunmalıdır, Azərbaycan artıq bizdən 5 milyard dollardan artıq dəyərdə silah alıb, real pul ödəyib. Ermənistan isə güzəştli qiymətlərlə və kreditlə silah alır və daha kiçik həcmdə". Ermənistanın müdafiə nazirinin 2020-ci ildə yeni silah alacaqlarına dair açıqlamasına toxunan ekspert deyib ki, İrəvan dörd ölkədən silah aldığını bəyan edib:"Düzünü desəm, Rusiyadan başqa hansı ölkələrdən söhbət getdiyini bilmirəm. Ermənistan Rusiya silahlarını kreditlə alır. Digər üç ölkəyə gəldikdə isə, onların Ermənistana qiymət baxımından hər hansı bir üstünlük verəcəkləri barədə sual yaranır, çünki müasir silahlar bahadır və bunu hamı başa düşür. Rusiyanın Ermənistana tədarükü kredit sxemi əsasında aparıldığından, bu, İrəvanın müasir silahları geniş miqyasda almasına müəyyən bir maneədir, çünki kredit kreditdir, kifayət qədər məhdud alış-verişi təmin edir, onu keçmək olmur. Bundan əlavə, kredit ödənilməlidir. Üstəlik, Ermənistanın milli ÜDM baxımından müəyyən iqtisadi məhdudiyyətləri var. Azərbaycanda isə vəziyyət tamam fərqlidir və bu mənada təlimlərdə yeni silahların nümayiş etdirilməsi də təbiidir". Ekspert hesab edir ki, belə vəziyyətdə Qarabağ münaqişəsinin məhz danışıqlar yolu ilə çözümü Ermənistan üçün ən yaxşı çıxış yoludur. Əks təqdirdə Azərbaycan ordusunun təlimlərinin real döyüş əməliyyatlarına istənilən vaxt keçidi mümkün sayılır. Bunun hansı nəticələrə gətirib çıxaracağı isə düşmənə də məlumdur və elə bundan irəli gəlir ki, ordumuzun təlimləri getdikcə düşməni daha çox lərzəyə gətirir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Yaponiya da Çinə baxıb üzünü Azərbaycana tutdu...

**Məlum olduğu kimi, bu günlərdə Çinin Sian şəhərindən yola düşən "China Railway Express" yük qatarı Azərbaycandan keçərək Avropaya çatıb. Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan bununla bağlı bildirib ki, Çindən Avropaya və əks istiqamətə qatarların hərəkəti dünya iqtisadiyyatının inkişafına əhəmiyyətli təkan olacaq.**

O vurğulayıb ki, Bakı-Tiflis-Qars dəmir yolu xətti Çinlə Türkiyə arasında yükdaşımaların müddətini 1 aydan 12 günə endirib. Onun sözlərinə görə, Avropa ilə Asiya arasında 21 trilyon dollarlıq ticarət həcminin olması bu marşrutun əhəmiyyətini daha da artırır. Cahit Turhan əlavə edib ki, Türkiyə, Azərbaycan və Gürcüstanın birgə səyləri ilə uğurla həyata keçirilən Bakı-Tiflis-Qars layihəsi polad relslər üzərində yükdaşımalarda yeni mərhələnin başlanğıcı olub:"Təqribən 5 milyard insanın və 60 ölkənin istifadə edəcəyi İpək Dəmir Yolu Xətti qlobal ticarət əlaqələri üçün yeni və çox mühüm alternativə çevrildi".

Bu vəziyyətdə diqqət çəkən məqamlardan biri budur ki, dünyanın ən böyük iqtisadiyyatna malik ölkələrdən biri olan Yaponiya da Çindən sonra öz məhsullarını Azərbaycan üzərindən dünya bazarlarına çıxarmağa başlayıb. Artıq Yaponiyanın Mie prefekturası ilə "HIS Co. Ltd" şirkəti arasında yapon ərzaq məhsullarının Azərbaycan vasitəsilə dünya bazarlarına çıxarılması məqsədilə strateji əməkdaşlıq müqaviləsi də imzalanıb. Müqavilənin məqsədi Mie prefekturasında istehsal edilən ərzaq məhsullarının Azərbaycanın kommersiya və logistik imkanlarından istifadə edərək beynəlxalq bazarlara çıxarılmasıdır. Layihə prefekturanın iqtisadi həyatının canlandırılması üçün mühüm əhəmiyyətə malikdir. Müvafiq layihənin reallaşmasında Yaponiya Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi, "HIS Co, Ltd" şirkəti və Yaponiya Xarici Ticarət Təşkilatı yaxından iştirak edəcək. Həmin məhsulların dünya bazarlarına çıxarılması üçün əsas mərkəz kimi Azərbaycanın seçilməsi isə, ilk növbədə, ölkəmizin əlverişli coğrafi mövqeyi, müasir nəqliyyat-logistika və kommersiya strukturlarına malik olmasıdır. Yaponiyada hesab olunur ki, Azərbaycanın tranzit mərkəz kimi formalaşması məqsədilə ölkə rəhbərliyinin həyata keçirdiyi infrastruktur layihələri həm şimal-cənub, həm şərq-qərb, həm də şimal-qərb istiqamətlərində əmtəələrin daşınması üçün çox əlverişli imkan yaradıb. Azərbaycanda müvafiq strukturlarını yaradan "HIS Co.Ltd" şirkəti bu imkanlardan faydalanaraq, öz keyfiyyəti ilə seçilən yapon ərzaq məhsullarını Azərbaycan vasitəsilə həm MDB, həm Avropa, həm də Yaxın Şərq bazarlarına çıxarmağı planlaşdırır. Layihə çərçivəsində ilkin olaraq Mie prefekturasında yetişdirilən "Maça" və digər yaşıl çay növlərinin Azərbaycana ixracı nəzərdə tutulur. Əldə edilmiş razılaşmaya əsasən, Azərbaycanın "Herba Flora" şirkəti həmin məhsulları qablaşdıraraq yaşıl çay paketləri, "Şirin" qənnadı fabriki isə müxtəlif şirniyyatlar şəklində "Made in Azerbaijan" brendi ilə dünya bazarlarına ixracını təmin edəcək. Bu, yapon ərzaq məhsullarının dünya bazarlarına ixracını artırmaqla yanaşı, həm də Yaponiya və Azərbaycan şirkətləri üçün faydalı olacaq. "HIS Co. Ltd" şirkətinin prezidenti Hideo Savada qeyd edir: "Avropa ilə Asiya arasında mühüm nöqtədə yerləşən Azərbaycan həm Avropa, həm Yaxın Şərq, həm də Mərkəzi Asiya ölkələri ilə sıx nəqliyyat əlaqələrinə malikdir və bu, yapon ərzaq məhsullarının həmin bazarlara çıxarılmasına böyük təsir göstərə bilər. Biz gələcəkdə yalnız "Maça" və digər yaşıl çay növlərini deyil, həmçinin müxtəlif növ meyvələri də bu yolla dünya bazarlarına çıxarmağı planlaşdırırıq. Bu layihə yapon ərzaq məhsullarını daha da məşhurlaşdıracaq".




Beləliklə, Yaponiya, Çin kimi böyük iqtisadiyyata malik ölkələrin məhsullarını Azərbaycan üzərindən dünya bazarlarına çıxarması ölkəmizin tranzit imkanlarına dünya miqyasında diqqətin əhəmiyyətli dərəcədə artdığını nümayiş etdirir. Ekspertlər də bildirir ki, "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan regionun tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır. Eyni zamanda bu, ölkəmizi mühüm nəqliyyat-logistika mərkəzinə çevirir. Paralel olaraq ölkəmizdə inkişaf etmiş nəqliyyat infrastrukturu yaradılır, nəqliyyat kompleksi xidmətlərinin keyfiyyəti artırılır. Bu istiqamətdə Bakı-Tiflis-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Abşeron Logistika Mərkəzi kimi layihələr artıq həyata keçirilib, "Şimal-Cənub", "Şərq-Qərb" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşdırılması davam edir. Rusiyalı ekspert Stanislav Pritçinin fikrincə də, Azərbaycan nəqliyyat dəhlizlərinin, o cümlədən "Şimal-Cənub" layihəsinin reallaşdırılmasında mühüm rola malikdir: "Bir məqamı qeyd etmək vacibdir ki, Azərbaycan Rusiya ilə İran arasında əlaqələndirici halqa olub vacib tranzit rolu oynadığı üçün "Şimal-Cənub" layihəsinin reallaşdırılmasında mühüm rola malikdir. Ölkə hazırda iqtisadiyyatın diversifikasiyası çərçivəsində bütövlükdə nəqliyyat, ilk növbədə isə, tranzit marşrutlarının inkişafına əhəmiyyətli maliyyə vəsaitləri yönəldir. Bu isə, öz növbəsində, ölkənin mövcud tranzit imkanlarını realizə etməyə imkan verir. O təkcə öz nəqliyyat infrastrukturunu inkişaf etdirmir, Azərbaycan həm də Bakı-Tiflis-Qars, "Şimal-Cənub" kimi meqa layihələrin inkişafına dəstək verir. Respublika bunu, sadəcə, öz ərazisinə düşən hissələrin aktiv tikintisi ilə deyil, digər ölkələrdə olan və onu əsas marşrutlar və nəqliyyat axınları ilə bağlayan infrastrukturun inkişafına maliyyə və mühəndis dəstəyi göstərməklə edir.

Layihənin Azərbaycan üçün siyasi dividendləri qonşularla əməkdaşlıq münasibətlərində əlavə gündəliyin mövcüdluğundan ibarətdir. İqtisadi baxımdan isə tranzit gücləri yeni iş yerləri və mənfəətin formalaşması üçün uzunmüddətli imkanların yaradılması deməkdir. Biz artıq görürük ki, Azərbaycanın Xəzər bölgəsi də tədricən vacib nəqliyyat və logistika habına çevrilir. Belə ki, Çinin "Bir kəmər, bir yol" strategiyası çərçivəsində Orta Asiyada formalaşan layihələr bu və ya digər şəkildə Xəzər dəniz marşrutu ilə uzlaşaraq sonradan Azərbaycan ərazisində Bakı-Tiflis-Qars infrastrukturuna bağlanır. Buna görə də bu gün üçün Azərbaycan "Şərq-Qərb" istiqaməti üzrə artıq bu sistemə inteqrasiya etməyə müvəffəq olub. Şimal-Cənub layihəsi üzrə işlər bitdikdə isə Azərbaycan artıq tam şəkildə nəqliyyat habı olacaq".

Bütün bunlar isə Azərbaycanın yükdışmalardan qarşıdakı dövr ərzində daha böyük gəlir əldə etməsini də şərtləndirən başlıca faktorlardan biri sayılır.

***Nahid SALAYEV***

# Bankların yanlış kursunun daha bir ziyanı - əmanətçilərin pulları iqtisadiyyatdan uzaq salınır...

**Ölkənin maliyyə və bank sektorunda baş verənlər milli valyutaya inamın artan xətt üzrə inkişaf etdiyini göstərir. Bu hal banklara manatla qoyulan əmanətlərin həcminin artımında da özünü qabarıq büruzə verir.**

Ötən ayın əvvəlinə olan məlumata görə, ölkə əhalisinin banklardakı əmanətlərinin həcmi 8 milyard 605,3 milyon manat təşkil edib. Əhalinin banklardakı əmanətləri son bir ayda 43,5 milyon manat və ya 0,5% artıb. Cari ilin əvvəlinə nisbətən bu göstərici 229,9 milyon manat və ya 2,7%, son bir ildə isə 406,2 milyon manat və ya 4,9% artıb.

Bu rəqəmlərdən də görünür ki, banklarda əhali əmanətləri artmaqda davam edir və onların maliyyə vəsaitlərinin əsas hissəsi də məhz əmanətlərdən formalaşır. Hesablamalar da göstərir ki, əmanətlərin 56 faizi xarici, 44 faizi isə milli valyutada qoyulub. Milli valyutada olan əmanətlər ötən ilin müvafiq dövrünə nisbətən 2,69 faiz artıb, xarici valyutada əmanətlər isə 5,1 faiz azalıb. Təhlillər göstərir ki, son 4 ildə xarici valyutada qoyulan əmanətlərin miqdarında əhəmiyyətli dərəcədə azalma var. Xatırladaq ki, 2015-ci ildəki məlum iki devalvasiya ilə vətəndaşlar əmanətlərin nisbətində ciddi dəyişikliklər etmişdi. Belə ki, 2014-cü ilin sonunda vətəndaşların əmanətlərinin 61 faizi manat, qalan 39 faizi isə digər valyutalarda, əsas etibarı ilə də dollarda saxlanırdı. Amma devalvasiyalardan sonra nisbət ABŞ dollarının xeyrinə dəyişməyə başladı. Hətta 2015-ci ilin sonunda depozitlərin 85 faizinin dollarda olduğu üzə çıxdı. Amma artıq son 4 ildə dollarda olan əmanətlərin miqdarı 29 faiz azalıb. Ekspertlər, banklar düzgün siyasət yürüdəcəyi təqdirdə, manat əmanətlərinin miqdarının daha sürətlə artacağını proqnozlaşdırır. Manat depozitlərinin dollarda analoqlarına nisbətdə sürətli artımı bank sistemi üçün müsbət xarakter daşıyır, dedollarlaşma prosesi gedir. Manat əmanətlərinin fiziki şəxslər üçün cəlbediciliyi onunla izah olunur ki, 2019-cu il noyabrın 1-i üçün banklar tərəfindən milli valyutada verilən dividendlər illik 9,57% orta dərəcə ilə həyata keçirilir, xarici valyutada bu rəqəm cəmi 1,98%-dir. Son üç il ərzində dollarla manatın nisbəti dəyişmir və 1,7 manat səviyyəsindədir. Mütəxəssislər də uzun müddətdir ki, manatın öz möhkəmliyini qoruyub saxladığını qeyd edirlər. Buna artıq həm ölkə iqtisadiyyatı, həm də vətəndaşlar adaptasiya olunub. Məzənnənin uzun müddətdir sabit qalması milli valyutaya olan inamı daha da artırıb. Bu səbəbdən də əmanətlərin milli valyuta ilə qoyuluş həcmi də artır. Eyni zamanda qeyd etmək lazımdır ki, mövcud sığorta sistemi də əmanətlərin həcminə müsbət təsir etdi. Amma buna baxmayaraq, faktiki olaraq bu gün əhalinin əlində dövriyyədən kənarda qalan vəsaitlərin həcmi də kifayət qədər çoxdur. Halbuki, banklar düzgün siyasət yeritsələr, həmin manat kütləsi də iqtisadiyyata cəlb edilə bilər. Amma araşdırmalar göstərir ki, hazırda kommersiya banklarının əmanət portfeli ilə kredit portfeli arasında faizlər baxımından yenə kəskin fərq var. Bu barədə danışmazdan öncə qeyd edək ki, bankların vətəndaşlardan cəlb etdiyi əmanətlər ümumi kredit qoyuluşlarının 65 faizini təşkil edir. Bu isə o anlama gəlir ki, bankların təklif etdiyi hər 100 manatdan 65 manatı vətəndaşdan cəlb edilən vəsaitlərdir. Amma buna rəğmən, kredit faizləri ilə depozit faizləri arasında kəskin fərq var. Orta hesabla banklar manatla depozitlərə 7 faiz, xarici valyutada olan depozitlərə hətta 1 faizdən az dividend təklif edirlər. Halbuki, kreditlər üzrə faiz dərəcələri tamamilə fərqlidir. Milli valyutada kreditlər üzrə faiz dərəcələri 30 faizədək yüksəlir. Xarici valyutada kredit faizləri 15 faiz ətrafında dəyişir. Belə şəraitdə, ekspertlərin fikrincə, əmanət faizləri ilə kredit faizləri arasındakı nisbətin yol verilən həddə qorunub saxlanmasına ehtiyac var. Çünki yuxarıda qeyd olunduğu kimi, əmanətlər bankların cəlb etdiyi vəsaitlərin içərisində xüsusi paya malikdir. Hesab olunur ki, bu şəraitdə banklar kredit faizlərini azaldıb, əmanət faizlərini artırsalar, vətəndaşların əlində olan vəsait, ilk növbədə də manat vəsaiti banklara və beləliklə iqtisadiyyata cəlb oluna bilər. Amma indiki vəziyyət bankların yenə də daha çox gəlir əldə etməyə çalışmasıdır. Yəni qısa müddətə daha çox gəlir əldə etmək prinsipi banklar üçün prioritet olaraq qalır. Bu özünü kredit strukturunda da göstərir. Belə ki, bu gün bankların təklif etdiyi kreditlərin 43 faizi istehlak kreditləridir. Özü də bu rəqəm artmaqda davam edir. Belə vəziyyət potensial əmanətçiləri də bank sektorundan uzaqlaşdırır. Yatırılan əmanətlər isə çox vaxt qısamüddətli olur. 2019-cu il noyabrın 1-i üçün fiziki şəxslərin bütün depozitlərinin 75%-nin qısamüddətli olmasını, ekspertlərin fikrincə, yalnız bununla izah etmək olar. Halbuki, 2014-cü ildə bu rəqəm 60% idi. Düzdür, ümumilikdə qeyd etmək olar ki, bank sektorunda vəziyyət sabitləşir və əhali öz əmanətlərini kredit müəssisələrinə qaytarır, amma bunu ehtiyatla, pulları qısamüddətli depozitlərdə saxlayaraq edir. Belə vəziyyət isə iqtisadiyyata hansısa ciddi fayda vermir. Nəticə etibarı ilə də iqtisadiyyata dəstək azalır. Bu baxımdan banklarda əmanətlərin həcminin artması çox əhəmiyyətlidir.




**Amma bunun üçün bankların faiz siyasətinə də düzəlişlər olunmalıdır. Əks təqdirdə banklar ölkə iqtisadiyyatında hələ də əhəmiyyətli rol oynaya bilməyəcək. Halbuki, banklara hərtərəfli şərait yaradan dövlətin onlardan gözləntisi tamam fərqlidir.**

*Tahir TAĞIYEV*

**Sağlamlıq həm də yediyimiz qidadan çox asılıdır. Son zamanlar tüğyan edən xəstəliklər yeyib-içdiyimizə diqqət yetirməyin vacib olduğunu göstərir. Ölkənin ticarət mərkəzlərində satılan ərzaqların çoxunun mənşəyi, tərkibi, istifadə müddəti haqda sənədləri yoxdur.**

# "Araz" marketlər şəbəkəsində satılan "555" yağları ətrafında qalmaqal yaranıb - Şirkətin reaksiyası...




*"Araz" supermarketlər şəbəkəsi - Billurə Əmirova: "555" Rusiya istehsalı olan spred yağıdır"*

*Mansur Piriyev: "Müştərinin dedikləri təsdiqini tapsa, ciddi ölçü götürüləcək"*

Qidadan zəhərlənmə və xəstəliyə yoluxma halları artır. Kulinariyamızda əksər yeməyin hazırlanmasında yağın istifadəsi xüsusi yer tutur.

Qidalanma üzrə mütəxəssislərin fikrincə, hər bir insan gün ərzində ən azı 100 qram yağ qəbul etməlidir. Bu şərtlə ki, həmin yağ keyfiyyətli olsun. Standartlara görə, kərə yağı 3 dərəcədən aşağı temperaturda maksimum 1 ay saxlana bilər. Amma mağazalarda aylarla satışda olan açıq kərə yağları var. Qutu yağların üzərində isə bir neçə ay saxlanma müddəti göstərilir.

Azərbaycanda əhalinin kərə yağına olan illik tələbatı 33 min tondur. Bunun 21 min tonu ölkədə istehsal olunur, qalanı xaricdən gətirilir. Ölkəyə əsasən Rusiya, Ukrayna, Belarus, Almaniya, Avstraliya və Yeni Zellandiyadan yeyinti yağı idxal olunur.

Ekspertlər bildirirlər ki, satışda "kərə yağı" adı ilə təklif olunan məhsulların əksəriyyətinin, əslində, kərə yağı ilə heç bir əlaqəsi yoxdur.

Elə bu günlərdə "Araz" marketdən yağ alan müştəri gördüyü mənzərədən şoka düşüb. Belə ki, paytaxt sakini Xanım İsrafilova sosial şəbəkədə başına gələn hadisəni yazıb. O bildirir ki, Yeni Suraxanıdakı "Araz" marketdən kərə yağı adıyla aldığı yağı əridərkən dəhşətli mənzərə ilə rastlaşıb: "Ucuz olduğuna görə hamı kimi mən də bir qutu "555" yağı aldım. Saxlamaq üçün əridib bankaya yığmaq istəyirdim. Yağı qaynadanda isə dəhşətli mənzərəylə rastlaşdım, köpükləndi, sonra qaralmağa başladı... Normal yağ belə olmur. Sonra həmin yağın qalanını mağazaya qaytarıb pulumu geri aldım".

Şikayətçi xanım qeyd edir ki, o, növbəti dəfə mağazaya gedərkən həmin məhsulun satışda olduğunu görüb: "Ən pisi odur ki, həmin yağa endirim edərək hamının diqqətini çəkirlər. İndi ən çox satılan yağ yəqin ki odur... Buna görə də aidiyyəti qurumları araşdırmağa dəvət edirəm. Mən yağı qaynatdığım qabları saxlamışam. Kim istəyir gəlib götürsün, araşdırsın. Təki belə halların qarşısı alınsın. İnsanlarımız mənşəyi bəlli olmayan qidalarla zəhərlənməsinlər".

Məsələ ilə bağlı öncə "Araz" supermarketlər şəbəkəsi ilə əlaqə saxladıq. "Araz" supermarketlər şəbəkəsinin PR meneceri Billurə Əmirova açıqlamasında bildirdi ki, qeyd olunan yağ kərə yağı deyil: "555" Rusiya istehsalı olan spred yağıdır. Yəni bitki tərkibli yağdır. Kərə yağı deyil. Məhsulun qablaşdırılmasında da spred yağı olduğu qeyd olunub. Daha çox şirniyyatların hazırlanmasında istifadə olunur. Qeyd edim ki, "Araz" marketlərində satılan kərə yağlarının qiymətliklərində kərə sözü yazılır. "555" yağı kərə olmadığından, qiymətliyində spred sözü qeyd olunub. Onu da əlavə edim ki, məhsulun hər partiyasından nümunə götürülür, Qida Təhlükəsizliyi Agentliyinin müvafiq yoxlanışından sonra satışa buraxılır".

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Mansur Piriyev bildirdi ki, məsələ araşdırılacaq: "Müştərinin dedikləri təsdiqini tapsa, ciddi ölçü götürüləcək".**

*Günel CƏLİLOVA*

---

**Cari ilin doqquz ayında Bakı şəhərində qeydə alınan yol-nəqliyyat hadisələrində təyin olunmayan yerlərdən keçən piyadaların avtomobillərlə vurulması ümumi hadisələrin 52 faizini təşkil edir.**

# Ağır fəsadlarla nəticələnmiş yol qəzalarına görə piyadalara da cinayət işi açılacaq



*Ərşad Hüseynov: "Piyada yol hərəkəti qaydaları üzrə mövcud vəzifələri icra etməkdə məsuliyyət daşımalı, onun üzündən başqaları məsuliyyət daşımamalıdırlar"*

Bəllidir ki, əvvəllər piyadaların günahı ucbatından baş verən yol-qəza hadisələrində onlar yalnız inzibati məsuliyyətə cəlb olunurdular. Ancaq indi vəziyyət əksinə olacaq.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi, polis polkovniki Vaqif Əsədov media nümayəndələrinə açıqlamasında bildirib ki, "Yol hərəkəti haqqında" Qanunun 40-cı maddəsinin tələblərinə əsasən, piyadalar qaydanı pozursa, cərimə olunurlar: "Piyada keçidi olmayan yerdən yolu keçmək 20 manat, sürət həddi 80 km/saatdan artıq olan yerlərdən keçmək isə 40 manat cərimədir. Amma məqsəd heç də piyadaları cərimələmək deyil. Əsas hədəf insanların maarifləndirilməsi və təhlükəsizliyin təminidir".

Şöbə rəisi onu da əlavə edib ki, piyadavurma hadisələrini təhlil etdikdə aydın olur ki, əsasən piyada keçidlərin yaxınlığında bu cür hallar daha çoxdur: "Ən çox piyadavurmalar yeraltı və yerüstü keçidlər olan ərazilərdə qeydə alınır. Paytaxtın inzibati ərazisinə düşən şəhərkənarı yerlərdə işə işıqlandırma olmayan ərazilərdə bu cür hadisələr baş verir. Piyada vuran zaman sürücü də məsuliyyət daşıyır. Bir çox hallarda həbs olunur. Amma qeyd edim ki, piyadaların günahı ucbatından baş verən qəzalar daha çoxdur. Piyadalar da bilməlidirlər ki, qəza onların günahı ucbatından baş verirsə, hadisələrin ağırlıq dərəcəsindən asılı olaraq, piyadalar inzibati məsuliyyətə deyil, cinayət məsuliyyətinə cəlb olunacaqlar".

Piyadaların iştirakı ilə qeydə alınan yol-nəqliyyat hadisələrində sürücünün deyil, piyadanın cinayət məsuliyyətinə cəlb olunması ekspertlər tərəfindən müsbət qarşılanır.

*"Piyadanın günahı üzündən ağır yol-qəza hadisəsi baş verirsə, onun inzibati məsuliyyətə deyil, cinayət məsuliyyətinə cəlb olunması..."*

Nəqliyyat sahəsi üzrə mütəxəssis Ərşad Hüseynov bildirdi ki, Azərbaycan təcrübəsində nəqliyyat vasitəsinin piyadanı vurduğu halların 98 faizində sürücü günahkar hesab edilir, cəmi iki faiz hallarda isə piyada günahkar sayılır: "Amma dünyanın heç bir ölkəsində belə bir hal yoxdur. İnkişaf etmiş Avropa ölkələrində bu məsələyə yanaşma başqadır. Avropa ölkələrində yol-nəqliyyat hadisələrində 60 faiz sürücü günahkar olur, 40 faiz piyada. Yeni dəyişiklik həmin yanlış təcrübəni, ədalətdən kənar yanaşmanı aradan qaldırmağa bir mesajdır ki, hadisəyə düzgün qiymət verilsin, piyada yol hərəkəti qaydaları üzrə mövcud vəzifələri icra etməkdə məsuliyyət daşısın, piyadanın günahı üzündən başqaları məsuliyyət daşımasınlar.

**Bu müsbət haldır. Piyadanın günahı üzündən ağır yol-qəza hadisəsi baş verirsə, onun inzibati məsuliyyətə deyil, cinayət məsuliyyətinə cəlb olunması daha məqsədəuyğundur. Beləliklə, piyadalar yolu keçərkən daha məsuliyyətli olacaqlar".**

*Günel CƏLİLOVA*

# Binəqədidə yanmış məşhur alkoponlu binanın fəsadlarını sakinlər hələ də yaşayır - İbrahim Paşa Dadaşov 71-də nə baş verir... 1 saylı MİS də bu yandan...

**Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikrorayon, İbrahim Paşa Dadaşov 71, mənzil 176 yaşayan Quliyev Böyükağa Məmmədağa oğlu redaksiyamıza müraciət edərək, yaşadıqları ərazidə vəziyyətin acınacaqlı olduğunu bildirib.**



Biz şikayətçinin dəvəti ilə deyilən ərazidə olduq. Həmin ərazidə yaşayan sakinlərlə görüşdük. Onlar bildirdilər ki, hər ay 1 saylı MİS onlardan bloklarda təmizlik üçün pul yığsa da, heç adi kosmetik təmir işi aparmır. Biz sözügedən binanın giriş bloklarında vəziyyətin acınacaqlı olduğunun şahidi olduq. Böyükağa Quliyev bildirdi ki, şəxsən bu məsələ ilə bağlı şəxsən "RJU" -nun rəisi Vəli müəllimin yanında da olub: "Mənə dedi ki, 200 blokda belə işlər aparılmalıdır, növbə çatan kimi edəcəyik. Ancaq görünən budur ki, məni aldadıblar. Binanın istilik sistemi də mərkəzləşmişdi, ancaq 10 ildir ki, normal istiliklə təmin olunmuruq. Kim su çənlərini hara istəyir, ora da qoyur". Şikayətçi bizə binanın ətrafında olan bir yaşıllıq ərazini göstərdi və dedi ki, həmin yeri də zəbt edib, "obyekt" tikmək istəyirlər: " Həmin yerdə ağacların bir hissəsini kəsib, yerində Binəqədi İcra Hakimiyyəti başçısının sabiq müavini Qəzənfər Novruzov özünə ticarət obyekti tikdi. Sonra həmin adamı həbs etdilər. İndi azad olunub, gəlib bağın qalan hissəsini də zəbt etmək istəyirlər. Cənab Prezident deyir ağaclar kəsilməsin, içtimai nəzarət güclənsin, amma təəssüflər olsun ki, Binəqədi rayonunda buna məhəl qoyan yoxdur. Bu acınacaqlı vəziyyətlə bağlı şikayət etmədiyim instansiya qalmayıb. Xahiş edirəm, bizim haqq səsimizi siz yuxarılara çatdırın".

Şikayətçi sonra bizə həmin ərazidə olan ATS-in qabağındakı yolun bir şirkət tərəfindən kəsildiyini göstərdi: " Bu problemə də əncam çəkmirlər. Bütün bu ərazidə yaşayan uşaqlar bu yolla keçib məktəbə gedirlər. Ancaq yol zəbt edilib. Bir neçə dəfə uşaqları maşın vurub. Mənim şikayətlərimə cavab olaraq bildirirlər ki, həmin yerdəki vaqonlarda yanan binanı təmir edən fəhlələr yaşayıb. Məşhur "alkaponlu binada" təmir xeyli müddət əvvəl bitibsə, niyə vaqonları götürmürlər? Görünür, o ərazi də kiməsə satılıb". Şikayətçi həmin ərazidə düz yolun ortasında tikilən yarımçıq tikilini göstərdi: "Baxın, həmin binanı da ağacları kəsib tikiblər. 3 mərtəbəli qanunsuz tikili 10 ildir ki, yarımçıq qalıb. Bunu söküb, yerini əvvəlki kimi ağaclıq etmək olar".

Ərazidən olunan şikayətlə bağlı çəkdiyimiz fotoları təqdim edirik:

***Məhəmmədəli QƏRİBLİ***




Binəqədi rayonu, 8-ci mikrorayon,
I.Dadaşov küçəsi, ev 71, mənzil 176
ünvanında yaşayan vətəndaş B.Quliyeva




Cənab İlham Əliyevə
Surəti: Zakir Qaralova




18.10.2017



# "AMV Consulting" şirkətinin 6 saylı Vergilər İdarəsindən etdiyi şikayət araşdırılıb

**Vergilər Nazirliyinin Media və Kommunikasiya İdarəsindən "Bakı-Xəbər"ə verilən xəbərə görə, bu günlərdə mətbuatda "AMV Consulting" şirkətinin Nazirliyin 6 saylı Ərazi Vergilər Baş İdarəsinin fəaliyyətindən şikayət etməsi ilə bağlı informasiyalar yayılmaqdadır.**

Xəbərə ggörə, "AMV Consulting" şirkəti iddia edir ki, xidmət göstərdiyi vergi ödəyicilərinin bank hesabına əsassız olaraq sərəncam qoyulması və hesablardan pul silinməsi barədə Vergilər Nazirliyinə müraciət ünvanlayıb.

Nazirlik bəyan edir ki, qeyd olunanlarla bağlı"AMV Consulting" şirkətinin müraciəti Vergilər Nazirliyinin müvafiq strukturları tərəfindən diqqətlə araşdırılıb. Belə ki, "AMV Consulting" şirkətinin nümayəndələri Nazirliyin Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsinə dəvət olunub və vergi bəyannamələrində aşkarlanmış uyğunsuzluqlar barədə onlara ətraflı izahat verilib. Şirkətin nümayəndələrinə dəqiqləşdirilmiş hesabatın verilməsinin zəruriliyi, həmçinin vergi qanunvericiliyi pozulduğu təqdirdə yaranan məsuliyyət halları barədə xəbərdarlıq edilib.Şirkətin nümayəndələri vergi bəyannamələrində uyğunsuzluqlar olduğunu etiraf ediblər və ən qısa zamanda dəqiqləşdirilmiş hesabatın təqdim ediləcəyini bildiriblər.

Vergilər Nazirliyi bildirir ki, vergi ödəyiciləri ilə qarşılıqlı etimada əsaslanan aydın və şəffaf münasibətlərin qurulması vergi xidmətinin fəaliyyətində əsas prioritet olaraq müəyyən edilib. Başlıca yanaşma bundan ibarətdir ki, vergi orqanları sahibkarlarla münasibətlərini şəffaf prinsiplər üzərində qurmalıdır. Bu səbəbdən Nazirlik tərfindən vergi ödəyicilərinin hüquq və qanunla müdafiə olunan mənafelərinin qorunmasına, eləcə də onların müraciətlərinə və şikayətlərinə ədalətli baxılmasına diqqətlə yanaşılır.Biz vergi ödəyicilərini dinləməyə, problemlərini həll etməyə, aşkar olunan hər hansı çatışmazlıqları aradan qaldırmağa hazırıq.

**Lakin vergi ödəyiciləri də qanunlar çərçivəsində işləməli olduqlarını bilməlidirlər. Bunun ən doğru yolu vergi orqanı ilə qarşılıqlı inam və etimada əsaslanan şəffaf əməkdaşlıq mühitinin təmin edilməsidir.**

***Baki-xeber.com***

**Bəzən deyirlər ki, səhnənin yaddaşı olmur, vaxt gəlir ki, səhnə onu fəth edənləri belə unudur, yaddan çıxarır. Amma bu fikirlə razılaşmaq olmaz, çünki səhnə fatehlərini tamaşaçılar unutmur. 90 yaşlı Xalq artisti, Prezident təqaüdçüsü, Azərbaycan milli rəqsinin əfsanələrindən biri Roza Cəlilovanı nə tamaşaçılar, nə də səhnə unudub. Təəssüf ki, bəzi kiçik məmurlar belə böyük sənətkarlara qarşı laqeyd münasibət göstərməklə onları incitməyə cəhd edirlər.**

# Roza Cəlilova Mahnı və Rəqs Ansamblına qarşı...

## ***Roza Cəlilova:*** *"Bütün rəqslər standart qoyulur, hamısı bir-birinə bənzəyir, hissiz-duyğusuz oynayırlar"*

Roza xanımla görüşüb onunla həm müasir milli rəqs sənətinin vəziyyəti, həm Mahnı və Rəqs Ansamblının hazırkı səviyyəsi, yeni kadrların hazırlanması işi və sairlə bağlı söhbət etdik.

**- Roza xanım, 90 yaşınızda da belə gümrahsınız. Yaddaşınıza da söz ola bilməz. Bunun sirri nədir?**

- Həyatım boyu heç kəsin paxıllığını çəkməmişəm, imkanım çatan qədər bütün sənət dostlarıma dayaq durmuşam, onları müdafiə etmişəm. Şükür Allaha ki, bu yaşa gəlib çatmışam. Əlbəttə, ömrü verən Allahdır. Sevinirəm ki, məni tamaşaçılar unutmur, harada görsələr mütləq mənə yaxınlaşırlar, xoş sözlər deyirlər, şəkillər çəkdirirlər. Hətta gənc analar öz körpələri ilə də şəklimi çəkdirirlər ki, sizdən yadigar qalsın.

**- Roza xanım, davamçılarınız var, nəvələriniz milli rəqslə məşğuldur. Oğul nəvəniz Lalə də gözəl milli rəqs ifaçısıdır. Səhv etmirəmsə, Bakı Xoreoqrafiya Akademiyasının məzunudur. Lalə hazırda işləyirmi? Bir vaxtlar solisti olduğunuz, sonra isə dəfələrlə baletmeyster kimi rəqslər qurduğunuz Mahnı və Rəqs Ansamblında nəvənizi işlə təmin etdilərmi?**

- Ən böyük arzum idi ki, Mahnı və Rəqs Ansamblında iz qoyub gedim. Çünki ömrə, günə etibar yoxdur. Həmişə arzu edirdim ki, ilahi, bir nəvəm olaydı və o mənim səhnədə davamçım olaydı. O biri nəvələrim də istedadlıdırlar, gözəl oynayırlar, amma mənə daha çox Lalə bənzəyir. Lalə Bakı Xoreoqrafiya Akademiyasının məzunudur. O, II Qəmər Almaszadə müsabiqəsində TÜRKSOY tərəfindən xüsusi diplomla təltif edilib. Mən çox istəyirəm ki, Lalə Mahnı və Rəqs Ansamblında işləsin, burada yolumu davam etdirsin. Bilirsiniz, vaxtilə mənim bu səhnədə saysız rəqsim olub, çoxu da mahnı ilə müşayiət edilib. Mahnı və Rəqs Ansamblı batır. Nə qədər ki, sağam, istəyirəm mənim rəqslərim itib batmasın. Lalədə böyük istedad var və o, milli rəqslər üçün yaranıb, çox istəyirəm ki, Mahnı və Rəqs Ansamblında rəqslərim bərpa edilsin və məndən bu kollektivə, xalqa yadigar qalsın.

**- Yenidən rəqslərə quruluş vermək istəyirsiniz?**

- Çox istəyirəm, şükür Allaha, işləməyə imkanım var. Mənə tez-tez deyirlər ki, Roza xanım, Lalə necə də sizə oxşayır. Dedim bəli, çox bənzəyir. Həm də Lalə ki, bu yaşda belə oynayır, mən heç onun yaşında bu cür oynamırdım. Bu çox gözəl oynayır, Lalə getdikcə daha da püxtələşəcək. Çox istəyirəm ki, o, Mahnı və Rəqs Ansamblında işə götürülsün, çünki bu ansamblda onun kimi gözəl ifaçılara ehtiyac var. Mən həmişə hər yerdə hörmət görmüşəm, hara müraciət etmişəmsə, işimi həll ediblər. Amma Mahnı və Rəqs Ansamblının bədii rəhbəri Ağaverdi Paşayevə müraciət etməyimə baxmayaraq, o hələ də nəvəmi işə götürmür. Yalandan onu get-gələ salır, "həftəsonu" deyə-deyə nəvəm süründürməçiliyə məruz qoyulub, halbuki, onunla eyni vaxtda işə düzəlmək istəyən qızı işə götürüblər. Lalə 1 aydan çoxdur ora gedib-gəlməyinə baxmayaraq, onun iş problemi həll edilmir. Ağaverdi Paşayev mənə deyir ki, Roza xanım, yer yoxdur, olanda xəbər edəcəyəm. Amma o tərəfdən də başqasını işə götürüb. Həmin qızı da Belarusa göndərdilər. Sənətdə bişməyən, səhnə təcrübəsi olmayan gənc bir qızı necə Azərbaycanı təmsil etmək üçün Belarusa göndərirsiniz?

**- Belə demək mükündürmü, Mahnı və Rəqs Ansamblının vəziyyəti Sizi qane etmir?**

- Bəli, Mahnı və Rəqs Ansamblının səviyyəsi qətiyyən qənaətbəxş deyil. Bunun da səbəbləri çoxdur. Onlardan birini deyim. May ayının 17-də dövlət səviyyəsində Filarmoniyada 90 illik yubileyim qeyd edildi. Mənə göstərdiyi yüksək qayğıya, diqqətə görə Prezident İlham Əliyevə, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya xüsusi təşəkkürümü bildirirəm. Mədəniyyət naziri Əbülfəs Qarayev də mənim sənətimə, şəxsiyyətimə hər zaman yüksək dəyər verir, sağ olsun.

90 illik yubileyimdə mənim rəqslərim təqdim edilməli idi. "Ağ çiçəyim" rəqsini Xoreoqrafiya məktəbinin kollektivi oynadı. Mənim "Muleyli" rəqsim də ifa olunmalı idi. Xormeyster gəldi ki, Roza xanım, bədii rəhbər deyir ki, rəqs mahnısız getsin. Dedim elə şey ola bilməz. Niyazinin vaxtında necə gedibsə, indi də elə getməlidir, rəqsi təhrif etmək olmaz. Elə "Muleyli"nin gözəlliyi onun sözləridir, mətnidir. Üzeyir bəyə Allah qəni-qəni rəhmət eləsin. Üzeyir bəy bilsə ki, onun yaratdığı Mahnı və Rəqs Ansamblında xor fonoqramla oxuyur, bilmirəm nə baş verərdi. Xor fonoqramla oxuyur, ifaçılar yalandan ağızlarını açıb yumurlar. Bu yaxınlarda Pirallahı qəsəbəsində Vaqif Mustafazadə adına Mədəniyyət Evində Əminə Dilbazinin 100 illik yubileyi keçirilirdi. Məni də dəvət etmişdilər. Ə.Dilbazidən danışdım. Dedim ki, mən Əminəni görüb səhnəyə gəlmişəm, sənəti sevmişəm. Məni səhnədə görüb səhnəyə gələnlər çox olub, amma bir dəfə etiraf etməyiblər, mən isə həmişə deyirəm ki, Əminəni görüb milli rəqsə gəlmişəm.

**- Əminə xanımı da zamanında çox müdafiə etmisiniz... Eşitdiyimə görə, hətta ona görə Mərkəzi Komitəyə də getmisiniz. Bu hadisə necə baş verib?**

- Əminə xanımı Mahnı və Rəqs Ansamblından işdən çıxarmışdılar, kollektiv xaricə qastrol səfərinə gedirdi, onun adı siyahıda yox idi. Həmim ərəfədə Ə.Dilbazinin aramızda olmaması məni çox narahat etdi və birbaşa Mərkəzi Komitəyə, Cəfər Cəfərovun qəbuluna getdim. Dedim ki, bu nədir, Əminə xanımın adını siyahıdan çıxarıblar? Dedi ki, Roza, sənin ona ehtiyacın var? Dedim ki, siz nə danışırsınız, mən səhnədə onu görüb milli rəqsə gəlmişəm. Sakitcə üzümə baxdı və heç nə demədi.

**- Onda Mahnı və Rəqs Ansamblının bədii rəhbəri kim idi?**

- Böyük bəstəkarımız Cahangir Cahangirov idi. Mərkəzi Komitəyə getməyimdən narazı qalmışdı. Mən Mahnı və Rəqs Ansamblında 20 ildən çox işləmişəm.

**- Neçə bədii rəhbərlə işləmisiniz?**

- Mən 1949-cu ildə ansambla gələndə Qılman Salahovu gördüm. O Q.Salahovu ki, Mahnı və Rəqs Ansamblını Üzeyir bəy ona əmanət etmişdi. Ondan sonra Səid Rüstəmov, Süleyman Ələsgərov, Cahangir Cahangirov, Hacı Xanməmmədov, Vasif Adıgözəlov, Ramiz Mirişli Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olublar. Hamısı da gözəl musiqiçi, bəstəkar, mahnı yaradıcısı. Amma bugünkü Mahnı və Rəqs Ansamblının fəaliyyəti məni qane etmir. Neçə dəfə getmişəm, ansamblın "razminka"sını görməmişəm. Məni ən çox incidən o oldu ki, 90 illik yubileyimdə xor fonoqramla oxudu. Pirallahıda da az qala eyni vəziyyət olmuşdu. Əminə xanımın yubileyində onlardan soruşdum ki, hanı mənim rəqsim, dedilər ki, xora icazə vermədilər. Deyirlər ki, guya xora icazə vermirlər. Yalan söhbətdir.

Çox təəssüf edirəm ki, Mahnı və Rəqs Ansamblının ənənəsi qorunmadı. Bu ansamblın çox böyük ənənəsi vardı. Hər rəqs ustadının özü bir məktəb idi. Əminə xanım özü böyük bir məktəb idi. Gündə 8 saat məşq edirdi. Bu yaxınlarda Ramiz Məmmədov rəhmətə getdi. Mənimlə 1957-ci ildə birgə qızıl medal almışıq onunla. R.Məmmədov çox ağır vəziyyətdə yaşayırdı, ağır xəstə idi. O çox ağır şəraitdə yaşadı, qayğı-diqqət göstərilmədi. Çox təəssüf. Əslində, belə sənətkarlar qorunmalıdır.

Mahnı və Rəqs Ansamblının ən böyük problemlərindən biri də ansamblın üzvlərinin qruplara bölünməsidir. Üç-dörd qızı bölüb qrup halında tədbirlərə göndərirlər, əslində, bölünməməlidir. Konsert Mahnı və Rəqs Ansamblının ifasında təqdim edilməlidir. Üç nəfər belə, beş nəfər başqa yerə aparırlar. O ansambl xorla bir yerdə konsert verməlidir. Bu, Üzeyir bəyin yadigarıdır. Mən Niyazinin tapşırığı ilə "Muleyli" rəqsini 16 nəfərin iştirakilə qoydum. Niyazi bu rəqsi qoymağımı çox istəyirdi. Dedi ki, Roza, mən Fransaya gedirəm, sən "Muleyli"də 16-nı 13 elə, "Muleyli"ni Fransaya aparmaq istəyirəm, amma qismət olmadı. Az bir vaxt sonra o, dünyasını dəyişdi. Maestro aşıq musiqisini, muğamı çox sevirdi. Niyazi böyük sənətkar idi. Bu gün elə adamları bu sahəyə rəhbər təyin edirlər ki, heç birini tanımıram. Gör kimlərin yerini kimlər tutub? O cür gözəl rəqslərmiz səhnədən uzaq düşüb. Bütün rəqslər standart qoyulur, hamısı bir-birinə bənzəyir, hissiz-duyğusuz oynayırlar. Halbuki, rəqsdə cürbəcür hərəkətlər var, süzmələr, üz mimikaları var. Bütün bunlar Lalədə var, çox canlı oynayır. Lalə nəvəm olduğu üçün tərifləmirəm, mən onun istedadını görürəm. Lalə peşəkar səhnədə öz yerini tutmalıdır, çünki buna onun kifayət qədər istedadı var. Ümid edirəm ki, Lalənin səhnədə layiqli yer tutması, Mahnı və Rəqs Ansamblında işlə təmin edilməsi üçün addımlar atılacaq.





*"Lalədə böyük istedad var və o, milli rəqslər üçün yaranıb, çox istəyirəm ki, Mahnı və Rəqs Ansamblında mənim rəqslərim bərpa edilsin"*

***İradə SARIYEVA***

# Məktəb bufetlərində yeməklərlə bağlı yeni ideya var...

**Bu gün tam rasionlu qidaların təqdim olunduğu bufet və yeməkxanaların yoxluğu Azərbaycanda məktəblərin az qala əsas problemlərindən birinə çevrilib. Bu isə həm şagirdlər, həm də valideynlər üçün ciddi narahatlıq yaradır.**

*"Bufetlərin böyük hissəsi ayrı-ayrı sahibkarlara icarəyə verildiyi üçün, onlar da özlərinə sərf edəni edirlər"*

## *Eyyub Hüseynov: "Bəzi tədris müəssisələrinin bufetlərində qadağan olunan təamlar hələ də satılır"*



Əksər hallarda aşağı sinifdə oxuyan şagirdlər yeməyi evdən gətirir, yuxarı sinif şagirdləri isə tənəffüslərdə çipsilər və energetik içkilər almaq üçün yaxınlıqdakı mağazaya gedirlər. Bütün bunlar böyüyən nəslin sağlamlığına təsir edir və gələcəkdə xeyli sayda xəstəliyin yaranması ilə nəticələnə bilər. Valideynlər övladlarının məktəbdə normal şəkildə qidalanması üçün pul ödəməyə hazırdırlar. Lakin hələ də məktəblərdə tam rasionlu naharın təşkili üçün şərait yaradılmayıb. Təbii ki, məktəb bufetlərinin hər yerdə olmadığını demək olmaz. Lakin normal şərait Bakı şəhərində yerləşən çox az məktəbdə təşkil olunub.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 28.2. bəndinə əsasən, təhsil müəssisələrində iaşə xidməti təhsil müəssisəsi ilə iaşə xidməti göstərən hüquqi və fiziki şəxslər arasında bağlanan müqavilə əsasında həyata keçirilir. Bu, özəl sahibkarlara məktəb yeməkxanalarını icarəyə götürməyə və orada yeməklər hazırlamağa imkan verir. Elə bu səbəbdən də bufetləri icarəyə götürən şirkətlər əməkdaşlıq etdikləri şəxslərlə birgə iş görürlər. Belə ki, həmin şəxslər evlərdə hazırladıqları peraşki, sobada bişirilmiş şirniyyatlar, blinçik, pitsa və digər təamları məktəb bufetində satırlar. Şagirdlərin çoxu da həmin təamlardan almağa üstünlük verir.

Ancaq məktəb bufetlərində hansı qidaların satılıb-satılmaması haqqında standartlar var. Həmin standartlara əsasən, məktəb bufetlərində müəyyən təamların satılması qadağan olunub. Təəssüf ki, bəzi məktəblər qadağaya məhəl qoymayıb, məktəb bufetləri üçün arzu olunmayan qidaları hələ də satışa çıxarırlar.

Ümumtəhsil və ilk peşə təhsili müəssisələrində uşaq və yeniyetmələrin qidalanması zamanı istifadəsinə icazə verilməyən məhsullar isə bunlardır: istifadə müddəti bitmiş və aşağı keyfiyyətli qida məhsulu, bir gün əvvəl hazırlanmış qida, xarabolma əlamətləri ilə meyvə-tərəvəz məhsulları, termiki emala məruz qalmayan yaşıl noxud, çirklənmiş və ya anbar ziyanvericiləri ilə yoluxmuş yarma, un, quru meyvələr və başqa məhsullar, ev şəraitində hazırlanmış istənilən qida məhsulu və konservlər, kremli şirniyyat məmulatları (piroq və tortlar), termiki emala məruz qalmayan, təbii halda olan kəsmik və xama, qazlaşdırılmış içkilər, bitki yağları əsasında süd məhsulları və dondurma, saqqız, çipslər və sair.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, bufetlərdə təhlükəli qidaların satışı inkar olunmur: "5 il əvvəl məktəb bufetləri üçün standart hazırlandı və bufetlərə müəyyən məhdudiyyətlər qoyuldu. Burada qazlı içki, bəzi kolbasalar və energetik içkilərin satışı qadağan olundu. Amma məktəb və bağçaların bufetləri hələ də baxımsız vəziyyətdədir. Onlar mərkəzləşdirilmiş şəkildə təmin olunmurlar. Buna görə də kim necə gəldi mal gətirərək, onun satışını həyata keçirir. Bufetlərin böyük hissəsi ayrı-ayrı sahibkarlara qanunsuz icarəyə verilib. Onlar da özlərinə sərf edəni edirlər. Ümumiyyətlə, böyük tənəffüs uşaqların qidalanmasına şərait yaratmır. Həmişə təklif etmişəm ki, məktəb dəhlizlərinə avtomatik meyvə satan aparatlar qoyulsun. Bu, sahibkara da xeyir verəcək. Hər şagird 20 qəpik ödəməklə təzə meyvə yeyəcək".

**Həmsöhbətimizin sözlərinə görə, bəzi tədris müəssisələrinin bufetlərində qadağan olunan təamlar hələ də satılır.**

***Günel CƏLİLOVA***

# "Azercell" Bakının mərkəzində Azərbaycanda ilk 5G şəbəkəsini işə salır!




## *Rəqəmsal dünyanı "Azercell" ilə yarat! - Ölkənin lider mobil operatoru Azərbaycanı yeni bağlantı erasına yüksəltmək vədinə sadiq olduğunu nümayiş etdirir!*

**Ölkədə və regionda ilk dəfə olaraq şəhər həyatının ən izdihamlı və qaynar yaşandığı Fəvvarələr Meydanı 5G şəbəkəsi ilə əhatə olunacaq!**

"Azercell" özünün daimi tərəfdaşı - "Ericsson" ilə birlikdə Fəvvarələr Meydanındakı Müştəri Xidmətləri Mərkəzində (Tağıyev küçəsi, 26A) mətbuat nümayəndələri və bütün ziyarətçilərə mobil telefonda 5G şəbəkəsinin təmin etdiyi yüksək sürətli internetin üstünlüyünün şahidi olmaq imkanı yaratdı. Sınaq zamanı 1GB/sandən daha artıq yükləmə sürəti qeydə alındı.

5G şəbəkəsinin demo istifadəsi çərçivəsində "Azercell" dekabr ayının əvvəlində Fəvvarələr Meydanında azsaylı dünya operatorları arasında genişmiqyaslı pilot ərazini əhatə etmiş öncül şirkətlərdən biri olacaq!

Dekabr ayından etibarən "Azercell" abunəçilərinə 5G şəbəkəsini şəxsən sınaq rejimində təcrübədən keçirmək üçün 5G dəstəkləyən telefonlar təqdim edəcək və şirkətin Müştəri Xidmətləri Mərkəzində bu növ telefonların satışı aparılacaq. Beşinci nəsil telefonları olan və yeni telefonlar sifariş edən müştərilər "Azercell"dən 5G sim kartlarını ödənişsiz əldə edəcəklər.

5G - müasir genişzolaqlı mobil rabitə xidmətlərini artırmaqla yanaşı, yüksək məhsuldarlıq, effektivlik və sərfəli qiymətlə yeni sənaye sahələrini birləşdirəcək, eləcə də müxtəlif çeşidli xidmətləri və cihazları dəstəkləyən mobil şəbəkələri genişləndirəcək bir innovativ platformadır. 5G pərakəndə satışdan tutmuş, təhsilə, nəqliyyatdan əyləncəyə qədər və onlarla bağlı xidmətlər ilə geniş bir sahəni dəyişdirəcək.

Beşinci nəsil simsiz texnologiya ildırım sürəti, inanılmaz dərəcədə az ləngimə və eyni vaxtda çox sayda qoşulma qabiliyyəti vəd edir. Yüksək sürət, minimal gecikmə və daha böyük tutum qabiliyyəti, ultrayüksək keyfiyyətli video, virtual reallıq və digər qabaqcıl tətbiqlərin istifadəsinə geniş imkan yarada biləcək. Bundan əlavə, 5G-nin işə salınması minimal enerji sərfiyyatı ilə Əşyaların İnterneti (İnternet of Things- IoT) potensialını bir anda daha çox qoşulma ilə (1 kvadrat kilometrə 1 milyonadək) artıracaq.

Pilot mərhələsində 5G xidməti "Azercell" tərəfindən ödənişsiz təqdim olunacaq və xidmətin ölkə boyu kommersiya istifadəsinə veriləcəyi ana qədər müxtəlif innovativ texnoloji həllərlə əlaqəli kompleks sınaq işlərinin aparılması davam etdiriləcək. 5G şəbəkəsinin operator tərəfindən ən birinci və ən tez sınaqdan keçirilməsi, eləcə də texniki yenilənməsi "Azercell"i dünyanın qabaqcıl mobil rabitə təminatçıları ilə bir sırada qərarlaşdırır. Həmçinin, "Azercell"in Azərbaycanda hər bir istifadəçiyə beşinci nəsil şəbəkəsinin üstünlüklərini göstərmək və yaxın etmək iqtidarında olduğunu sübut edir.

Azərbaycanı yeni bağlantı erasına hazırlayan "Azercell Telekom" özünün LTE şəbəkəsini gücləndirərək və genişləndirərək son yarım ildə əhali əhatəsində 86.2%, coğrafi ərazi əhatə dairəsində isə 61.4% yüksəlişə nail oldu. Həmçinin, gündəlik LTE data istifadəsində 49.6%, LTE yükləmə və ötürmə süretində isə 16%-dək yüksəliş qeydə alındı. Hazırda Bakı və Abşeron da daxil olmaqla, ölkənin 60-a yaxın bölgəsi "Azercell"in LTE şəbəkəsinin əhatə dairəsindədir və bu rəqəm gündən-günə yüksəlməkdə davam edəcək.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

№ 201 (4099) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

13 NOYABR 2019-cu il

www.baki-xeber.com


# Tailandda yeni dinozavr növü tapıldı



**Tailandın şimal-şərqindəki Nonq Bualamphu əyalətində qazıntılar zamanı yeni dinozavr növünün qalıqları aşkar edilib.**

"Trend"in məlumatına görə, bu, "dinozavr dərəsi" adı verilmiş bölgədən tapılan 11-ci yeni növdür. Alimlər bu dinozavrın 60 milyon il əvvəl yaşamış tirannozavr növünə yaxın olduğunu ehtimal edir. 4 metr uzunluğu olduğu ehtimal edilən dinozavra hindu inancında külək tanrısı olan Vayunun şərəfinə "Vayuraptor" adı verilib.

## NASA mütəxəssisləri Yupiterdə nəhəng fırtına qeydə alıblar



**"Yunana" peyki Yerə Yupiterin nadir fotosunu göndərib.**

"Milli.Az" bildirir ki, fotoda fırtına əks olunub. NASA bildirir ki, fırtına planetin atmosferində yerləşir. Bu nadir təbiət hadisəsi Yupiterin çox qəribə adlı regionunda "şimali şimali şimali şimali mülayim zona"sında müşahidə edilib. Bu zona buludların özünəməxsus zolaqlar şəklində sabit toplanması ilə xarakterizə olunur. Fotoda çəkilən Yupiter qasırğasının eni, elm adamlarına görə, 1931 kilometrdir. Xatırladaq ki, "Yunana" peyki kosmik səyahətə 2011-ci ildə yollanıb.

## 18 milyard kilometr aralıdan Yerə mesaj gəldi

**Amerikanın "Voyacer-2" planetlərarası aparatının Yer kürəsinə ulduzlararası fəzadan göndərdiyi məlumatları alimlər araşdırıblar.**

"Sputnik Azərbaycan" bildirir ki, bu barədə Amerika Aerokosmik Agentliyinin (NASA) saytında bir neçə məqalə dərc olunub. Aparatın heliosferdən keçərkən mütəxəssislərə göndərdiyi məlumatlar barədə "Nature Astronomy" jurnalı bəhs edir. Məlumatlar iki ədəd plazmanın öyrənilməsi üçün, iki ədəd enerji hissəciklərinin aşkar edilməsi üçün və bir ədəd maqnit sahəsi sensoru olmaqla ümumilikdə 5 qurğudan əldə edilib. Alimlər deyirlər ki, bu məlumatlar Günəşin yaratdığı mühitin "sahil xətti"nin təsvirini qurmağa kömək edəcək. Eyni zamanda, "Voyacer"dən alınan məlumat lokal ulduzlararası fəzadakı plazmanın heliosferin içindəki plazmadan daha sıx, eləcə də, temperaturunun daha aşağı olduğunu təsdiqləyib. Bəlli olub ki, ulduzlar arasındakı fəzada da kosmik şüalar, başqa sözlə desək, partlayan ulduzlardan güclü təkan alan hissəciklər var. NASA-nın mütəxəssisləri bildirirlər ki, heliosfer Yer kürəsini bu cür şüaların 70%-nin təsirindən qoruyur. Kosmik zondun göndərdiyi məlumatlar heliosferin hüdudlarını müəyyənləşdirməyə kömək edir. Bu sərhəd bizim ulduzumuzun aktivliyindən asılıdır. "Voyacer-2" Günəş sistemini 2018-ci ilin dekabrında tərk edib. Hazırda o, planetimizdən 18 milyard km aralıda yerləşir. "Voyacer-2" Günəş sisteminin 4 nəhəng planetinin yanından keçən ilk aparatdır. O, Yupiterin 3, Saturnun 4, Uranın 11, Neptunun 6 yeni peykini aşkarlamağa kömək edib. Son iki planetin yaxınlığından isə "Voyacer-2"dək hələ heç bir kosmik aparat keçməyib. "Voyacer-2" NASA tərəfindən 1977-ci il avqustun 20-də Günəş sisteminin uzaq planetlərinin öyrənilməsi məqsədilə kosmosa buraxılıb. Onun ulduzlararası fəzaya çatması üçün 40 il vaxt gərək olub.


## Elan

Şəki rayonu, Baş Küngüt kənd sakini Cəlilov Tahir Sabəddin oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0014 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üşün etibarsız sayılır.

Şəki rayonu, Baş Küngüt kənd sakini Mürsəlov İmran Qara oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0005 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Mahir İsa oğlu adına, Bakı şəhəri, Yasamal rayonu, B.Şahtaxtinski küçəsi 12 ünvanının MH № 0213069 çıxarışı itdiyi üçün etibarsız sayılır.

Quliyev Yaqub Atamoğlan oğluna Bakı şəhəri, Binəqədi RHK tərəfindən verilmiş Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır (AZE N17739147 Bakı, ASAN 3).

Mirzəyev Qüdrət Behbud oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikorayon, Ş.Məmmədova küçəsi, ev 7, mənzil 158 ünvanına verilmiş çıxarış (qeydiyyat vəsiqəsi) itdiyi üçün etibarsız sayılır.

Məmmədova İlahə Namiq qızına Bakı Slavyan Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Mustafayeva Təranə Şaban qızının adına, Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsi, ev 41, mənzil 43 ünvanının çıxarışı, Bakı şəhəri, Nəsimi rayonu, Mir Cəlal küçəsi 64, mənzil 71 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Ələsgərov Zakir Nəriman oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsində yerləşən torpaq sahəsinin reyestr nömrəsi 21886 qeydiyyat vəsiqəsi və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Ələsgərova Nərgiz Tarış qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsində yerləşən torpaq sahəsinin reyestr nömrəsi 21880 qeydiyyat vəsiqəsi və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Quliyeva Elnarə Həsənqulu qızına BDU tərəfindən verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qasımova Tünzalə Məmməd qızına BDU tərəfindən verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - O qədər də yaxşı gün deyil. Səhər ətrafınızdakılarla qovğa edəcək, mübahisələri ürəyinizə salacaqsınız. Bir çox Qoçlar bu gün yaman küsəyəndirlər. Yaxınları isə bunun fərqinə varanda artıq iş-işdən keçmiş olacaq.


**Buğa** - Bu gün dünənkindən yaxşıdır, amma o qədər də parlaq deyil. Emosional fon gərgindir, əhvalınız dəqiqəbədəqiqə dəyişir, heç özünüz də bilmirsiniz, nəyə sevinir, nəyə kədərlənirsiniz.


**Əkizlər** - Gələcək planlarınızı bir daha gözdən keçirmək üçün əla gündür. Çox güman ki, nələrisə dəyişmək qənaətinə gələcəksiniz. Saktiliyiniz səbəbindən şəraitdən ən düzgün çıxış yolunu tapırsınız.


**Xərçəng** - Bu gün sizə böyük müvəffəqiyyətlər vəd edir. Mürəkkəb məsələləri çox qısa bir zamanda həll edə bilərsiniz. Çoxdan üzərində düşündüyünüz plan və ideyalarınızı reallaşdırmağa başlaya bilərsiniz.


**Şir** - İş üçün, xüsusilə də entuziazm və səy tələb edən iş üçün elə də münasib gün deyil. İşgüzarlığınız sıfır həddindədir, hərdən nəinki iş görməyə, hətta düşünməyə də tənbəllik edirsiniz.


**Qız** - Sözlərinizdə diqqətli olun. Nə qədər anlaşılmaz danışsanız, bir o qədər yaxşıdır. Birbaşa suallara konkret cavab verməkdən çəkinin. Bu gün ağzınızdan çıxan hər bir kəlmədən əleyhinizə istifadə edə bilərlər.


**Tərəzi** - Müsbət tendensiyaların təsiri bu gün çox güclüdür, amma onlardan istifadə etməyə tələsin. Çünki, axşama doğru onlar tamamilə yoxa çıxa bilər. Bu günə istənilən xarakterli görüş təyin edə bilərsiniz.


**Əqrəb** - Cəsur və riskli ideyanız həddən artıq uğurlu alınır. Sizə bir zamanlar fantastik görünən bir planı reallaşdıra bilərsiniz. Rəqibləriniz paxıllıqdan çatlayır, tərəfdaşlarınız isə həvəslə sizin liderliyiniz altında çalışırlar.


**Oxatan** - Düzgün qərarlar qəbul edərək onları həyata keçirməyin vaxtı gəlib çatdı. Hələlik gələcək uğurlarınız üçün baza yaradırsınız. Amma nə qədər vacib olduğunu nəzərə alaraq bunu ciddi şəkildə həyata keçirməkdəsiniz.


**Oğlaq** - Hər şey alaraq alır. Həvəslisiniz, çətin problemlərin öhdəsindən asanlıqla gəlir, bir çox suallara cavab tapırsınız. Bəzən başqalarının işlərini də görməli olursunuz, amma şikayət etmirsiniz, ətrafdakılara yardım etmək xoşunuza gəlir.


**Dolça** - Yaxşı olar ki, bu günü sakitlikdə keçirəsiniz, stresli şəraitlərdən qaçın, əsəb sisteminizi yükləməyin. Gününüzü planlaşdırarkən bu məqamları mütləq nəzərə alın: əgər hər dəqiqə tələssəniz, tamamilə lazım olmayan məqamda "partlaya" bilərsiniz.


**Balıqlar** - Romantik görüşlər, dostlarla bir yerə toplaşmaq, ziyafətlərdə iştirak üçün əsl məqamdır. Əşyalara, hadisələrə qeyri-adi yanaşma tərzi tələb edən işlərdə irəliləyiş əldə edə bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bu ərazidən hər gün insan meyiti tapılır - Qorxunc olayın sirri



**Meksikanın Puerto Penasko şəhəri yaxınlığında yerləşən çöllük ərazidəki bir çuxurda 10 insan meyiti tapılıb.**

"Teleqraf.com" xəbər verir ki, Meksika polisinin verdiyi açıqlamada cəsədlərin ABŞ-la sərhəd bölgədə aşkar edildiyi bildirilib. Sözügedən yerdə 10 cəsədin tapıldığının bildirildiyi açıqlamada oktyabr ayından bu yana bölgədə aşkar olunan meyitlərin sayının 52-yə çatdığı vurğulanıb. Açıqlamada az qala hər gün bu bölgədə insan cəsədinə rast gəlindiyi qeyd olunub. Məlumata görə, narkotik mafiyaları işlədiyi cinayətləri örtbasdır etmək məqsədilə belə üsullardan istifadə edir. Puerto Penasko vaxtilə "Şinalo" narkotik karteli ilə rəqiblərinin qarşıdurmasına səhnə olmuşdu.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.